HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 13 (804) ■ 6 aprel 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Prezident İlham Əliyev: «Münaqişənin sülh yolu ilə həlli üçün Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır»

Aprelin 2-də Azərbaycan Respublikası Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib. İclasda çıxış edən dövlətimizin başçısı bildirib ki, bu gün Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törədib, təmas xəttində yerləşən mövqelərimizə hücum çəkib: «Təmas xəttinə yaxın yerlərdə yerləşən yaşayış məntəqələrimiz atəşə tutulmuşdur. Bu silahlı təxribat nəticəsində itkilərimiz olmuşdur. Hərbçilərimiz və mülki şəxslər həlak olmuşlar. Xahiş edirəm, həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad edək».



Bir dəqiqəlik sükutdan sonra Prezident İlham Əliyev həlak olan hərbçilərimizə Allahdan rəhmət diləyib: «Allah onların qohumlarına, yaxınlarına səbr versin. Yaralananlara Allahdan şəfa diləyirəm. Göstəriş verirəm ki, Nazirlər Kabineti həlak olanların ailələrinə maddi yardım göstərmək üçün təkliflər irəli sürsün və Müdafiə Nazirliyi döyüş əməliyyatlarında fərqlənmiş, Vətən uğrunda qəhrəmancasına döyüşmüş insanları təltif etmək üçün mənə təkliflər təqdim etsin».

Dövlətimizin başçısı bildirib ki, bu, Ermənistanın ölkəmizə qarşı növbəti silahlı təxribatıdır: «Birinci dəfə deyil ki, Ermənistan bu cür təxribatlara əl atır. Bir neçə gün bundan əvvəl Azərbaycan-Ermənistan sərhədində, Qazax istiqamətində də oxşar təxribat törədilmişdir. Bizim mövqelərimizə Ermənistanın təxribatçı qrupları hücum çəkmişlər. Bu hücum nəticəsində iki hərbçimiz həlak olmuşdur. Düşmənə layiqli cavab verilmişdir. Düşmən yerinə oturduldu. Yəni, bunu demək istəyirəm ki, bugünkü təxribat da Ermənistanın Azərbaycana qarşı məkrli siyasətinin təzahürüdür. Bu gün erməni təxribatı Azərbaycan Ordusu tərəfindən layiqincə cavablandırıldı. Düşmənə çox böyük zərbələr endirildi. Düşmən böyük itkilər verdi. Müdafiə naziri bu məsələ ilə bağlı daha ətraflı məlumat verəcək. Deyə bilərəm ki, düşmənə sarsıdıcı zərbə vuruldu. Bununla bərabər, bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər, eyni zamanda daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, - biz böyük hərbi qələbə qazandıq. Bu münasibətlə ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm».

Ali Baş Komandan bildirib ki, bundan sonra da düşmənin bütün təxribatları cavabsız qalmayacaq: «Düşmənə bundan sonra da layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan övladları öz doğma torpağını müdafiə edirlər, Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaq. Ermənistanın bu hərəkətlərinin də səbəbi mənim üçün sirr deyil. Mən dəfələrlə həm Azərbaycan ictimaiyyətinə, həm bu məsələ ilə bağlı olan vasitəçilərə, vasitəçilik edən ölkələrin başçılarına öz fikirlərimi bildirmişdim. Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin. Bu sözlərin kifayət qədər çox sübutları var. Danışıqlar prosesi iyirmi ildən artıqdır ki, aparılır. Bu iyirmi il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atırdı. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır. Eyni zamanda, keçən əsrin sonlarında Ermənistan parlamentində terror aktının törədilməsi də məhz bu məqsədi güdürdü ki, münaqişə ilə bağlı mümkün olan razılaşmanı əngəlləsinlər və beləliklə, status-kvonu saxlaya bilsinlər. Xatırlayırsınız, 2014-cü ildə Fransa Prezidenti cənab Olland Parisdə Ermənistan və Azərbaycan prezidentlərinin görüşünü təşkil etmişdi. Görüş çox konstruktiv şəraitdə keçmişdi və görüşün nəticəsi ümidlər verirdi. Orada biz, eyni zamanda, təmas xəttində təhlükəsizlik, etimad tədbirlərinin gücləndirilməsi haqqında danışırdıq. Ancaq o görüşdən iki həftə keçməmiş Ermənistan işğal edilmiş torpaqlarda - Ağdam rayonunun ərazisində, özlərinin dediyi kimi, 47 min şəxsi heyətin iştirakı ilə hərbi təlimlər keçirməyə başlamışdı. Bu, sırf təxribat xarakterli bir addım idi. Bunun nə mənası var idi? Xüsusilə Parisdə keçirilmiş uğurlu sayılan görüşdən sonra. Bir neçə gün Azərbaycan Ordusu özünü çox təmkinlə apardı, mən də göstəriş vermişdim ki, biz təxribatlara uymayaq. Ancaq ondan sonra düşmən daha da azğınlaşmışdır, bizim mövqelərimizə hücum çəkmişdir, hərbi helikopterləri işə salmışdır. Azərbaycan Ordusu helikopterin birini məhv etmişdir. Bu, Ermənistana lazım idi. Onların təxribatı idi. Lazım idi desinlər ki, Azərbaycan atəşkəsi pozur, Azərbaycan burada özünü aqressiv aparır və sair. Bugünkü təxribat da, bax, bu mənbədən gələn təxribatdır. Yenə də bizim mövqelərimizə hücum çəkirlər. Bizim əsgərlərimiz, zabitlərimiz həlak olur.

**Davamı 2-ci səhifədə**

## Dövlətimizin başçısı yaralı hərbçiləri ziyarət edib

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkib.



Dövlətimizin başçısı cəbhənin təmas xəttində gedən döyüşlərdə yaralanan hərbçilərlə görüşüb. Müdafiə naziri Zakir Həsənov bildirib ki, cəbhənin təmas xəttində ermənilərin təxribatının qarşısını alarkən qəhrəmanlıqla döyüşən və yaralanan hərbçilərin bir hissəsi müalicə olunmaq üçün bu hərbi hospitala gətirilib. Hazırda onların müalicəsi istiqamətində zəruri tədbirlər görülür. Hospitalın tibbi heyəti hərbçilərimizin tezliklə sağlamlıqlarına qovuşmaları üçün gecə-gündüz əllərindən gələni edirlər.

Sonra Prezident İlham Əliyev şəhid ailələrinin və yaralıların yaxınlarının bir qrupu ilə görüşüb. Son bir neçə gündə ermənilərin təxribatına layiqli cavab verən hərbçilərimizlə qürur duyduğunu bildirən dövlətimizin başçısı Azərbaycan gənclərinin vətənpərvərliyinə heç zaman şübhə etmədiyini vurğulayıb: «Mən bir daha sizə təşəkkürümü bildirmək istəyirəm ki, Vətən üçün belə övladlar böyütmüsünüz. Biz onlarla, onları böyüdən valideynlərlə fəxr edirik. Həkimlər mənə deyirlər ki, yaralananların hamısı sağalacaq. Bir daha deyim ki, ölkəmizin ərazi bütövlüyü Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Ölkəmizin ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Əgər bu gün yenə də Ermənistan rəhbərliyi öz səhvlərini başa düşüb danışıqlar masasında özünü səmimi aparırsa, əminəm ki, məsələnin sülh yolu ilə həlli üçün imkanlar var. Bir daha demək istəyirəm, Azərbaycan bu gün də bəyan edir ki, birtərəfli qaydada bütün döyüş əməliyyatlarını dayandırır, amma bir şərtlə ki, qarşı tərəf bundan istifadə etməsin. Onlar da dayandırsınlar, oturduğu yerlərdə də qalsınlar, tərpənməsinlər. Biz öz torpağımızdayıq. Heç bir başqa ölkənin torpağını işğal etməmişik. Amma hec kimə imkan verməyəcəyik ki, bizim torpağımızda hökmranlıq etsin. Artıq Azərbaycan dövləti də güclü dövlətdir, ordusu da güclü ordudur. Bax, bizim burada müalicə alan qəhrəman uşaqlarımız bunun ən gözəl sübutudur, təzahürüdür. Bir daha sizə minnətdarlığımı bildirirəm. Allah sizə səbr versin, yaxınlarınız, uşaqlarınız tezliklə sağalsınlar».

Prezident İlham Əliyevə təşəkkürlərini bildirən şəhid ailələrinin və yaralıların yaxınları lazım gəlsə övladları ilə bərabər hər an Vətənimizin müdafiəsi uğrunda döyüşməyə hazır olduqlarını bildiriblər: «Qələbə bizimdir. Biz övladlarımızı Vətən üçün böyütmüşük».

# Azərbaycan regionun təhlükəsizliyində mühüm rol oynayır

Aprelin 1-də Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda IV Nüvə Təhlükəsizliyi Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.



Nüvə Təhlükəsizliyi Sammiti XXI əsrdə beynəlxalq birlik üçün ciddi təhlükə yaradan nüvə terrorçuluğunun qarşısını almağa həsr olunan yüksək səviyyəli zirvə görüşüdür. Əllidən çox ölkənin dövlət və hökumət başçılarının, müxtəlif beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri Sammitdə nüvə təhlükəsizliyinin əsas məsələləri, o cümlədən dünyada təhlükəli nüvə materiallarının sayının azaldılması, radioaktiv mənbələrin təhlükəsizliyinin, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və digər məsələlər müzakirə olunub.

Zirvə görüşünün «Nüvə təhlükəsizliyini gücləndirmək üçün milli fəaliyyətlər» mövzusunda açılış sessiyasında çıxış edən ABŞ Prezidenti Barak Obama ötən dövrdə nüvə təhlükəsizliyi məsələsi ilə bağlı yeni düşüncə tərzinin formalaşdığını və fəaliyyətlərin qəbul edildiyini bildirib. Qeyd edib ki, bu, XXI əsrin heç bir ölkənin təkbaşına öhdəsindən gələ bilmədiyi təhlükəsizlik çağırışlarına qarşı birgə mübarizənin gözəl nümunəsidir. Nüvə təhlükəsizliyinin ən yüksək prioritet olduğunu, bununla bağlı dövlətlərin öz üzərlərinə 250 öhdəlik götürdüyünü və indiyədək bu öhdəliklərin dörddə üçünün yerinə yetirildiyini diqqətə çatdırıb. O, nüvə materiallarının qaçaqmalçılığının qarşısının alınması üçün hazırda daha çox ölkənin əməkdaşlıq qurduğunu, yüzdən artıq dövlətin «Nüvə materialının fiziki mühafizəsi haqqında» Konvensiyanı ratifikasiya etdiyini bildirib.

Sammitdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanı tədbirdə iştiraka dəvət etdiyi üçün ABŞ-ın dövlət başçısına minnətdarlığını bildirib. Qeyd edib ki, biz bu dəvəti dostluq, tərəfdaşlıq və Azərbaycanın regionda oynadığı rolun təzahürü kimi qəbul edirik: «Belə bir mötəbər beynəlxalq toplantıda iştirak etmək bizim üçün böyük şərəfdir. Biz Prezident Obamanın dünya miqyasında nüvə təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi fəaliyyətini və səylərini tam dəstəkləyirik».

Azərbaycan Prezidenti bildirib ki, ölkəmiz nüvə materiallarının yayılmamasına böyük əhəmiyyət verir. Nüvə materiallarının yayılması ilə bağlı meydana çıxan təhdidləri və ölkəmizin yerləşdiyi coğrafi mövqeyi nəzərə alaraq biz nüvə materiallarının qanunsuz trafiki üçün ölkəmizin ərazisindən mümkün istifadənin qarşısının alınmasına böyük əhəmiyyət veririk: «Biz beynəlxalq tərəfdaşlarımızla sıx əməkdaşlıq edərək dünya standartlarına uyğun güclü qanunvericilik bazasına əsaslanan hərtərəfli milli ixrac nəzarəti sistemini yaratmışıq. Bu günə kimi milli ixrac nəzarəti sistemimiz nüvə materiallarının qanunsuz daşınmasının qarşısının alınmasında etibarlı bir mexanizm kimi özünü doğrultmuşdur. Lakin ərazimizin yüz faizinə nəzarət etmək imkanımız olmadığına görə proqramları tam şəkildə icra edə bilmirik. Bu gün ərazilərimizin 20 faizi Ermənistanın işğalı altındadır. Bu işğal 20 ildən çoxdur ki, davam edir. Həmçinin beynəlxalq səviyyədə tanınan sərhədlərimizin bir hissəsi işğal altındadır. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Amma bu qətnamələr kağız üzərində qalmaqdadır. Bir daha təkrar edirəm, bu qətnamələr Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Lakin torpaqlarımızın işğalı 20 ildən çoxdur ki, davam edir. Əfsuslar olsun ki, Ermənistan işğal edilmiş əraziləri boşaltmaq üçün həmişə şərtlər irəli sürür. Biz münaqişənin sülh yolu ilə nizamlanması üçün səylərimizi davam etdirəcəyik. Lakin münaqişə Azərbaycanın ərazi bütövlüyü əsasında həllini tapmalıdır».

Dövlətimizin başçısı Ermənistanda 1976-cı ildə inşa edilmiş, köhnəlmiş atom elektrik stansiyasının istismarı ilə bağlı vəziyyətə də toxunub. Bildirib ki, bu stansiya köhnələn reaktorunu soyutmaq üçün su qıtlığı yaşanan çox seysmik bir zonada yerləşir və region üçün birbaşa təhlükə doğurur: «Elektrik stansiyasını istismardan çıxarmaq əvəzinə Ermənistan onu 2026-cı ilə qədər istismar etməyi planlaşdırır. Bu isə o deməkdir ki, bütöv region, o cümlədən Ermənistanın özü də növbəti on il ərzində təhlükə içində yaşayacaqdır. Mən beynəlxalq birliyin diqqətini bu məsələyə yönəltmək istəyirəm ki, elektrik stansiyasının fəaliyyətinin dayandırılması və beynəlxalq ictimaiyyətin gözlədiyi qayda və prosedurlara əməl edilməsi üçün Ermənistana təzyiq göstərsin».

# Prezident İlham Əliyev: «Münaqişənin sülh yolu ilə həlli üçün Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır»

**Əvvəli 1-ci səhifədə**

Ondan sonra Azərbaycan Ordusu onların başını əzir və indi dünyaya hay-haray çəkirlər ki, Azərbaycan atəşkəsi pozur. Biz atəşkəsi pozmamışıq, biz sadəcə olaraq təxribata layiqli cavab vermişik. Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq».

Azərbaycan Prezidenti bildirib ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının çoxsaylı bəyanatları Ermənistan rəhbərliyinə heç bir təsir göstərmir: «Bu bəyanatlar ondan ibarətdir ki, ABŞ, Rusiya və Fransa dövlətlərinin başçıları dəfələrlə bildirmişlər: status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır. Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğalçılar işğal edilmiş torpaqlardan çıxmalıdır. Ermənistan rəhbərliyi bunu istəmir. Əsas məsələ bundan ibarətdir. Onlar istəyirlər ki, bu, sonu olmayan prosesə çevrilsin. İstəyirlər ki, danışıqlar bundan sonra da iyirmi il davam etsin. Onlar özlərini danışıqlar masası arxasında qeyri-səmimi aparırlar. Bu yaxınlarda Rusiya Prezidenti və Rusiyanın xarici işlər naziri digər həmsədrlərlə birlikdə müəyyən təkliflər irəli sürmüşlər. Biz bunu alqışlayırıq. Həm görüş əsnasında və rəsmi bəyanatlarda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı öz fikirlərini bildirmişlər. Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilmişdir. Görüşlər onu göstərir ki, Amerika tərəfi münaqişənin tezliklə həll olunması üçün çox maraqlıdır. Bilirəm ki, Ermənistan rəhbərinə də müəyyən siqnallar, mesajlar verilmişdir. Yəni, son vaxtlar həmsədrlər, onların dövlətlərinin başçıları çalışırlar ki, məsələ həll olunsun. Nüvə Sammiti hələ başa çatmamış Ermənistan bu çirkin təxribatı törədir, sülh prosesinə çox böyük zərbə vurur. Bundan istifadə etməyə çalışır ki, Azərbaycanı günahlandırsın. Onların sərəncamında olan satqın kütləvi informasiya vasitələri, satqın siyasətçilər, korrupsiyaya uğramış politoloqlar, şərhçilər indi sıraya düzülüblər ki, Azərbaycanı ittiham etsinlər. Əgər indi bəzi ölkələrin mətbuatına nəzər salsanız, görərsiniz ki, birtərəfli məlumat gedir. Azərbaycan ittiham olunur. Döyüşlərlə bağlı təhrif edilmiş məlumatlar verilir».

**Qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər, eyni zamanda daha əlverişli hərbi mövqelərə malik oldular**

Ali Baş Komandan qeyd edib ki, atəşkəs rejimindən sonra ilk dəfədir ki, ermənilərə belə sarsıdıcı zərbə vuruldu: «Bunun günahkarı onlar özləridir. Ancaq çalışırlar ki, həm ictimai rəyi çaşdırsınlar, itkiləri gizlətsinlər. Eşitdiyimə görə, Ermənistan rəhbəri ictimaiyyətə itkilərlə bağlı qeyri-dəqiq məlumat ötürməyə çalışır. Bu, açıq-aydın onu göstərir ki, bunlar sadəcə olaraq öz xalqını aldatmaq istəyirlər. Bu gün Ermənistan tərəfi bütün imkanlardan - diaspor təşkilatlarından, müxtəlif ölkələrdə onların agentlərindən, korrupsiyaya uğramış siyasətçilərdən istifadə edir ki, bütün günahı Azərbaycanın boynuna qoysun. Bizim heç bir günahımız yoxdur. Biz sadəcə olaraq bu təxribata cavab vermişik. Düz də etmişik. Bizə qarşı yenə təxribat törədilərsə onlar yenə də öz cəzalarını alacaqlar. Bu, bir. İkincisi, biz öz torpağımızda vuruşuruq. Biz Ermənistan torpağını işğal etməmişik. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm. Ermənistan bütün beynəlxalq normaları pozubdur. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur, digər təşkilatların qərar və qətnamələrini saymır. İşğal edilmiş torpaqlarda bütün binaları, tarixi, dini abidələrimizi vəhşi kimi dağıdıb. ATƏT-in faktaraşdırıcı missiyası işğal edilmiş torpaqlarda iki dəfə olmuşdur. Onların məlumatları bizdə var. Bizim məscidlərimiz, qəbirlərimiz, tarixi abidələrimiz, binalarımız, muzeylərimiz dağıdılıb. Bütün qiymətli əşyalar talan edilib. Bu, misli görünməmiş vəhşilikdir. Bu gün İrəvanda ən yüksək kabinetlərdə oturan cəlladlar vəhşicəsinə Xocalı soyqırımını törətmişlər. Onlar bunun cavabını verməlidirlər, yoxsa yox?!

Biz səbir, dözümlülük, konstruktivlik göstəririk. Baxmayaraq ki, biz 20 ildən artıqdır atəşkəs rejimində yaşayırıq. Yenə də çalışırıq ki, məsələ sülh yolu ilə öz həllini tapsın. Mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də deyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz müharibə istəmirik. Biz istəmirik ki, qan tökülsün. İstəmirik ki, gənc insanlar həlak olsunlar. Biz istəmirik ki, anaların göz yaşları tökülsün. Azərbaycan, Ermənistan analarının göz yaşları tökülməsin. Ancaq biz öz haqqımızı tələb edirik. Bir daha demək istəyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq həll etmək istəyirik. Biz bundan sonra da sonu bəlli olmayan prosesdə sadəcə olaraq görüntü naminə iştirak etmək fikrində deyilik. Bunu vasitəçilərə də demişik, bunu Ermənistan tərəfi də bilir. Ona görə də məsələnin sülh yolu ilə həlli üçün Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır. Bunun başqa yolu yoxdur. Əgər Ermənistan rəhbərliyi öz xalqının gələcəyini düşünürsə, bu addımı atmalıdır. Ermənistanda hökm sürən kriminal diktatura rejimi öz ölkəsini uçuruma aparır. Ermənistanda demoqrafik vəziyyət kritik həddə çatıbdır. İqtisadiyyat dağılıb, bütün azadlıqlar tapdalanır, diktatura hökm sürür. Kriminal rejim ilk növbədə erməni xalqının qənimidir. Ona görə onların gələcəyi yalnız qonşu ölkələrlə normal münasibətlərdən keçir. Ancaq hansı normal münasibətlərdən söhbət gedə bilər ki, XXI əsrdə qonşu ölkənin torpaqlarının 20 faizini işğal edəsən, soyqırımı törədəsən, sonra isə soyqırımına məruz qalan xalqı günahlandırasan ki, atəşkəsi pozur.

Mən bir daha demək istəyirəm ki, Azərbaycanın prinsipial mövqeyi var. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. O ki qaldı Dağlıq Qarabağda yaşayan erməni əhalisinə, onlar gələcəkdə Azərbaycan vətəndaşları kimi Azərbaycanda rahat yaşaya bilərlər. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Azərbaycan bir çox ölkələr üçün nümunədir, multikulturalizm məkanıdır, tolerantlıq diyarıdır».

Azərbaycanın dövlət başçısı bildirib ki, xalqların öz müqəddəratını təyinetmə prinsipi ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktı məhz bunu diktə edir: «Ona görə bir daha demək istəyirəm ki, biz münaqişənin həlli ilə bağlı öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Bununla bərabər, biz danışıqlara sadiqik, bundan sonra da çalışacağıq ki, bu münaqişə sülh yolu ilə öz həllini tapsın. Bununla bərabər, biz Ordumuzun gücünü daha da artıracağıq. Ona görə artıracağıq ki, bax, bu təxribatlar, erməni təxribatları cavabsız qalmasın. Hesab edirəm ki, bu gün - aprelin 2-si onlar üçün yaxşı dərs olacaqdır».

Dövlətimizin başçısı qeyd edib ki, bu gün - aprelin 2-si Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır: «Azərbaycan Ordusunu, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini bu böyük qələbə münasibətilə təbrik edirəm».

## Vergilər Nazirliyində qanvermə aksiyası keçirilib

Aprel ayının 4-də vergi orqanlarında qanvermə aksiyasına başlanılıb. Aksiyanın ilk günündə nazirliyin aparatının struktur bölmələrinin 260 nəfərdən çox əməkdaşı iştirak edib. Aksiya Vergilər Nazirliyinin yerli strukturlarında aprel ayının 8-dək davam etdiriləcəkdir.

Xatırladaq ki, vergi orqanlarının əməkdaşları artıq ənənəyə çevrilmiş qanvermə aksiyalarında 10 ildir fəal iştirak edirlər.



## Dövlət büdcəsi ilə bağlı birinci rübün nəticələri açıqlanıb

Maliyyə Nazirliyinin yaydığı məlumata görə, 2016-cı ilin birinci rübündə dövlət büdcəsinin mədaxili 3 mlrd. 570,6 mln. manat proqnoza qarşı 3 mlrd. 678,1 mln. manat və yaxud 3 faiz çox olmuşdur. Vergilər Nazirliyi tərəfindən mədaxil proqnozu 101,4 faiz icra edilməklə dövlət büdcəsinə 1 mlrd. 542 mln. manat vəsait təmin edilmişdir. Bu vəsaitin 78,5 faizi və yaxud 1 mlrd. 210,7 mln. manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür ki, bu da 2015-ci ilin müvafiq dövrünə nisbətən 9 faiz-bənd çoxdur. 2016-cı ilin birinci rübündə Dövlət Gömrük Komitəsi tərəfindən proqnoza 114,8 faiz əməl edilərək büdcəyə 416,9 mln. manat vəsait təmin olunmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 21,9 faiz və ya 74,9 mln. manat çoxdur.

Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaları 47,5 mln. manat təşkil etmişdir. Sair daxilolmalar üzrə büdcəyə 11,7 mln. manat vəsait daxil olmuşdur. Dövlət Neft Fondundan büdcyə 1 mlrd. 660 mln. manat vəsait transfert edilmişdir. 2016-cı ilin 1-ci rübündə dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 73,3 faiz və yaxud 2 623,5 mln. manat icra olunmuşdur. İqtisadi təsnifata uyğun olaraq, cari ilin ilk üç ayında dövlət büdcəsi xərclərinin 54,4 faizi və yaxud 1 mlrd. 426,7 mln. manatı sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,8 faiz və yaxud 52 mln. manat çoxdur.

Cari ilin 1-ci rübündə dövlət əsaslı vəsait qoyuluşu xərclərindən elm, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 16 mln. manat, enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya infrastrukturlarının tikintisinə, yenidən qurulmasına və digər sahələrə 153,4 mln. manat, o cümlədən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsinə dövlət büdcəsinin dövlət əsaslı qoyuluşu xərclərindən 4,8 mln. manat vəsait yönəldilmişdir.

2016-cı ilin ilk üç ayında büdcə təşkilatlarının təqdim etdikləri xərc sifarişləri üzrə xəzinədarlıq orqanları tərəfindən qəbul edilmiş öhdəliklər tam və vaxtında maliyyələşdirilmişdir. Dövr ərzində dövlət büdcəsində 1 mlrd. 054,6 mln. manat büdcə artıqlığı (profisit) yaranmışdır.

Cari ilin 1-ci rübündə icmal büdcənin gəlirləri 4 mlrd. 473,2 mln. manat, icmal büdcənin xərcləri isə 3 mlrd. 348,3 mln. manat icra olunmuşdur. İcmal büdcənin artıqlığı 1 mlrd. 124,9 mln. manat təşkil etmişdir.

## Dəyişikliklər vergi potensialından daha səmərəli istifadəyə imkan yaradır

Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdən biri də əlavə dəyər vergisi (ƏDV) ilə bağlıdır. Əsas dəyişikliklər ƏDV-nin məqsədləri üçün ərizəvermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcminin 120 min manatdan 200 min manatadək, ƏDV qeydiyyatının ləğvi üçün vergi tutulan əməliyyatların həcminin isə 60 min manatdan 100 min manatadək artırılmasıdır. Vergi Məcəlləsinə edilmiş bu dəyişiklik ölkə iqtisadiyyatının davamlı inkişafının təmin olunması və stimullaşdırılması üçün yeni vergi mexanizmlərindən istifadəyə əlavə imkanlar yaradır, eyni zamanda vergitutma bazasının genişləndirilməsi və mövcud vergi potensialından daha səmərəli istifadə olunması məqsədi daşıyır.

Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan 155.1-ci maddəsinə əsasən, sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120 min manatdan artıq olan vergi ödəyiciləri ƏDV-nin məqsədləri üçün qeydiyyata alınırdılar və 18 faiz dərəcə ilə vergi ödəməli idilər. Hazırkı dəyişikliklərə əsasən isə sahibkarlıq fəaliyyəti göstərən və ƏDV-nin məqsədləri üçün ərizəvermə öhdəliyi yaradan vergi tutulan əməliyyatların həcmi 200 min manatadək artırılıb. Başqa sözlə desək, məcburi ƏDV qeydiyyatına alınmaq öhdəliyi yaradan həddin artırılması dövriyyəsi 200 min manatadək olan şəxslərə sadələşdirilmiş vergitutma rejimində - Bakı şəhərində 4 faiz, digər regionlarda isə 2 faiz dərəcə ilə vergi ödəməklə fəaliyyətlərini davam etdirməyə imkan yaradacaq. Bu isə vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, həmin vergi ödəyicilərinin vergi yükünün əhəmiyyətli dərəcədə azaldılmasını təmin edəcək.

Vergi Məcəlləsinin 158.2-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, ƏDV qeydiyyatının ləğvi üçün vergitutma əməliyyatlarının həcminin əvvəlki tam 12 təqvim ayı ərzində 60.000 manatdan 100.000 manata qədər artırılması ƏDV qeydiyyatında olan şəxslərə ƏDV qeydiyyatının bu meyar üzrə ləğv edilməsinə və sadələşdirilmiş vergitutma metodunun tətbiq olunmasına şərait yaradacaq. Əvvəlki qaydaya görə, məsələn, vergi ödəyicisinin 2014-cü il sentyabr ayından 2015-ci il avqust ayı daxil olmaqla ardıcıl 12 təqvim ayında ƏDV üzrə vergi tutulan əməliyyatlarının həcmi 60.000 manatdan az olduğu halda, vergi ödəyicisi vergi orqanına ərizə verməklə ƏDV qeydiyyatından çıxa bilirdi. Həmin şəxsin ƏDV tutulan dövriyyəsi 60.000 manatdan çox, misal üçün, 75.000 manat olardısa, ƏDV qeydiyyatından çıxmaq hüququ olmurdu. Müvafiq dəyişiklikdən sonra vergi ödəyicisinin 2015-ci ilin yanvar-dekabr aylarında ƏDV tutulan əməliyyatlarının həcmi 100.000 manatdan aşağı, misal üçün, 90.000 manat olduqda belə, ƏDV qeydiyyatından çıxmasına və vergini sadələşdirilmiş qaydada ödəməsinə şərait yaranmış olur.

Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan 164.2-ci maddəsinə əsasən, Nazirlər Kabineti konkret sahənin inkişafını təmin etməklə konkret dövr üçün nəzərdə tutulan, istehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, istehsal təyinatlı xammal və müasir texnologiyanı təmin edən avadanlıqların idxalını ƏDV-dən azad edə bilərdi. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 yanvar 2005-ci il tarixli 11 nömrəli Qərarı ilə ölkə ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahıları təsdiq edilmişdi. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən sonra isə prioritet sahələr üzrə idxalda ƏDV-dən azadolmaların siyahısı Vergi Məcəlləsinə daxil edilmişdir.

H rm tli vergi d yicil ri!
Aprel ay n n 20›d n gec olmayaraq
DV d yicil ri qeydiyyatda olduqlar
orqan na DV›nin b yannam sini t qdim
etm lidirl r. Xat rladaq ki,
DV zr hesabat d vr t qvim ay hesa
edildiyind n, h min verginin
d vl t b dc sin k r lm si d
m hz bu d vrl rd h yata ke irilm lid

**Rəşad SADIQOV**



# İdman mərc oyunlarında vergi hesablanması

## Uduşlardan gəlir əldə etmiş şəxs vergi bəyannaməsi təqdim etməlidirmi?

Bu ilin mart ayında «Bədən tərbiyəsi və idman haqqında» Qanuna edilmiş dəyişikliklərə əsasən, idman mərc oyunlarına nəzarət funksiyası Maliyyə Bazarlarına Nəzarət Palatası adlı publik hüquqi şəxsə verilib. Digər dəyişikliyə görə isə idman mərc oyunlarının təşkili və keçirilməsinə nəzarəti həyata keçirən maliyyə bazarlarına nəzarət orqanı həmin orqanın müəyyən etdiyi məbləğdə və qaydada idman mərc oyunlarından əldən olunan gəlirlər hesabına maliyyələşəcək. Xatırladaq ki, indiyədək bu sahəyə nəzarəti Gənclər və İdman Nazirliyi həyata keçirirdi.

Bu ildən idman mərc oyunları sektorunda vergi nəzarəti də aktuallaşıb. 2016-cı il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, idman mərc oyunları üzrə uduşlardan əldə olunan gəlirin ödəmə mənbəyində vergiyə cəlb edilməsi nəzərdə tutulub. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Akif Musayevin sözlərinə görə, «Bədən tərbiyəsi və idman haqqında» Qanunun 54-cü maddəsinə əsasən, bədən tərbiyəsi və idman dövlət büdcəsindən ayrılan, bu sahə üzrə tədbirlərin təşkilindən əldə olunan, idman lotereyasının, idman mərc oyunlarının keçirilməsindən daxil olan vəsaitlər, fiziki və hüquqi şəxslərin ianələri hesabına və qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən maliyyələşdirilir. İndiyədək bu sahədən vergilər yalnız operator və satıcıları əhatə edirdi. 2013-cü il yanvarın 1-dən etibarən qüvvəyə minmiş «Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» Qanuna əsasən, idman mərc oyunlarının operatoru tərəfindən oyun iştirakçılarından qəbul edilmiş vəsaitdən 6% dərəcəsi ilə, idman mərc oyunlarının satıcısı tərəfindən isə operatorun ona verdiyi komisyon haqdan 4% dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır və dövlət büdcəsinə ödənilir. Bu oyunlarda iştirak edən şəxslərin əldə etdikləri uduşlar 2013-cü il yanvarın 1-dən gəlir vergisindən azad edilmişdi. Həmin vergi güzəştinin tətbiqi ötən 3 il ərzində ölkədə keçirilən idman mərc oyunlarının inkişafını stimullaşdırmaqla bu sahədən əldə edilən gəlirlərin sürətli artımı ilə nəticələndi və uduşların vergiyə cəlb edilməsi zərurəti yarandı. Buna görə də Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə idman mərc oyunlarından əldə olunan uduşların ödəmə mənbəyində vergiyə cəlb edilməsini nəzərdə tutan müddəalar öz əksini tapdı. Mərc bileti üzrə idman mərc oyunlarından əldə edilən uduşlardan mərc biletinin alınması üçün operatora ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxıldıqdan sonra qalan məbləğdən 10% dərəcə ilə vergi tutulur.

Artıq cari ilin ilk rübü başa çatıb və gəlir vergisinin ödəyicisi olan şəxslər aprelin 20-dək vergi bəyannamələrini doldurub vergi orqanına təqdim etməlidirlər. Əks halda, onlar üçün maliyyə sanksiyaları nəzərdə tutulub. Bəs bu qaydalar idman mərc oyunlarında uduşlardan gəlir əldə edən fiziki şəxslərə şamil olunurmu və onların vergi ödənişlərinin sənədləşmə mexanizmi necə tənzimlənir?

A.Musayevin sözlərinə görə, idman mərc oyunlarında uduşlardan gəlir əldə etmiş şəxslər gəlir vergisi ödədikləri halda, onların vergi bəyannamələri təqdim etmələrinə ehtiyac yoxdur. Mövcud qanunvericiliyə əsasən, uduş əldə edən şəxsin vergisini oyunu keçirən operator özü rəsmiləşdirməlidir. Uduşu qazanmış şəxsdən 10% dərəcəsi ilə vergi tutan operator özü vergi bəyannaməsini vergi orqanına təqdim edərkən həmin uduş məbləğləri ilə bağlı məlumatları da bəyan edir. Ona görə də gəlir əldə edən fiziki şəxsin vergi orqanında uçota alınması və bəyannamə təqdim etmək öhdəliyi yaranmır. Həmin şəxs vergi ödənişləri ilə bağlı sənədləşmə işlərində yaranan problemlərə görə də məsuliyyət daşımır.

*İdman mərc oyunlarında uduşlardan gəlir əldə etmiş şəxslər gəlir vergisi ödədikləri halda, onların vergi bəyannamələri təqdim etmələrinə ehtiyac yoxdur*

**ELBRUS**

# Günümüzün iqtisadi reallıqlarından biri: e-ticarət

Bu gün həm ayrı-ayrı ölkələr, həm də qlobal səviyyədə pərakəndə ticarətin öncə tərəfdaşına, sonra isə rəqibinə çevrilən elektron ticarət sayəsində sahibkarlar mövcud müştərilərinə alternativ satış kanalı təmin etməklə yanaşı, həm də yeni, qərarı dükana gəlmədən daha öncə verən fərqli müştəri qrupu formalaşdırırlar.



Elektron Ticarət İcmasının rəhbəri Rəşad Camalın sözlərinə görə, son zamanlar xarici ölkələrdən alınan əmtəələrin manatın kursu ilə bağlı bahalaşması müştəriləri daha sərfəli mallar almağa sövq edir: «Online» mühitin verdiyi xərclərin optimizasiyası kimi üstünlük gəlirləri stabil saxlayaraq qiymətə həssas müştərilərin ehtiyaclarını ödəməyə imkan verir. İndi həm ölkədə elektron ticarət sürətlə inkişaf edir, həm də «Amazon», «Alibaba», «eBay» kimi platformaların sadiq alıcı kütləsi var. Digər ölkələrin qanunvericiliyi ilə müqaisədə Azərbaycanın «Elektron ticarət haqqında» Qanunu sahibkarlar və şirkətlər üçün daha yumşaqdır. Qanunun əsas tələbləri şəffaf alğı-satqı münqasibətinin qurulmasına, əmtəələrin vaxtlı-vaxtında çatdırılmasına yönəldilib, bu fəaliyyət sahəsi üzrə hər hansı pul, lisenziya tipli məhdudiyyətlər yoxdur».

R.Camal son zamanlar iqtisadiyyatdakı şəffaflığın, eyni zamanda gömrük rüsumları üzrə nəzərdə tutulan islahatların nəticəsi olaraq, idxal edilən əmtəələrin real dəyəri ilə satışı arasında fərqlərin minimuma endiriləcəyini və beləliklə də problemsiz vergiyə cəlb edilmə, müvafiq olaraq biznesin xətasız və fasiləsiz fəaliyyətinin mümkünlüyünü qeyd edib: «Bu gün Azərbaycanda elektron kommersiya sisteminin təşkilində banklar da öz xidmətlərini göstərir, müştərilərin maliyyə tərəfdaşı rolunu oynayırlar. Elektron ticarət dövriyyələrinin birbaşa olaraq bank hesablarında vasitəçisiz toplanması sahibkarlara əlavə üstünlüklər verir. Sahibkarların tədarükçü zənciri üzrə tərəfdaşlarının eyni bankın xidmətlərindən istifadə etməsi biznes proseslərinin daha çevik və fasiləsiz həyata keçməsini təmin edir. Öz prosessinq mərkəzi olan bankların elektron həllərindən istifadə edən sahibkarlar müştərilərinin daha dərin alış-veriş vərdişlərini tədqiq edə bilirlər».

R.Camal bankların ölkədə elektron bazarların formalaşmasını sürətləndirməsi ilə bağlı bildirdi ki, bu bazarlar satıcı qismində çıxış edən fermer, istehsalçı və s., eləcə də alıcı qismində çıxış edən sahibkarlar arasında münasibətləri tənzimlədiyinə görə, banklar kommersiya münasibətlərini müxtəlif növ maliyyələşdirmə üsulları ilə daha da optimallaşdıra bilirlər: «İxracyönümlü beynəlxalq əməkdaşlıq şəraitində bankın satıcıya təminat verməsi real praktikadır. Azərbaycanda elektron ticarətin inkişafınıləngidən infrastrukturun lazımi səviyyədə olmaması, poçt sisteminin zəifliyi, elektron məkanda müştəri ehtiyacının keyfiyyətli ödənilə bilməməsi kimi amillər və bu sahədə digər problemlər artıq öz həllini tapmaqdadır. Elektron ticarət sistemini daha tez və optimal səviyyədə quran sahibkarlar daha çox müştəri qazanırlar. Banklar isə bu struktur daxilində mərkəzi yer tutaraq, elektron kommersiyanı inkişaf etdirib vəsaitlərin ağıllı idarə edilməsi üzrə peşəkarlıq göstərməkdə davam edəcəklər».

Bankçılıq üzrə ekspert Əkrəm Həsənovun fikrincə, ödənişlərin əksəriyyətinin nağd həyata keçirilməsində kölgə iqtisadiyyatı, vergidən yayınma və korrupsiya kimi səbəblərlə yanaşı, banklara etimadın az olması da mənfi rol oynayır.

*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin rəis müavini Şamil Ərəbov mövzunu şərh edərək bildirdi ki, Vergi Məcəlləsində elektron ticarət sahəsində fəaliyyətdən əldə olunan gəlirlərdən vergilərin hesablanması və büdcəyə ödənilməsi sahəsində fərqli qayda müəyyən edilməmişdir, hazırda bu sahə vergiyə ümumi qaydada cəlb olunur: «Elektron ticarət fəaliyyətindən gəlir əldə edən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyətdən əldə olunan gəlirdən tətbiq etdikləri vergitutma sistemindən (sadələşdirilmiş vergi, mənfəət (gəlir) vergisi) asılı olaraq, Vergi Məcəlləsi ilə müəyyən olunmuş vergiləri hesablayıb dövlət büdcəsinə ödəməli və müvafiq bəyannamələri vergi orqanına təqdim etməlidirlər. Bunlarla yanaşı, elektron ticarət sahəsində göstərilən fəaliyyətdən əldə olunan gəlirlərdən vergi qanunvericiliyində hər hansı vergi güzəşti və azadolmalar nəzərdə tutulmamışdır».*

«Euromonitor» Araşdırma Agentliyinin göstəricilərinə əsasən, 2015-ci ilin sonunda ümumi e-ticarət dövriyyəsinin həcmi 994 mlrd. dollar olmuş, lakin öncəki illərlə müqayisədə dövriyyənin artım tempi azalmışdır. Xarici ölkələrdə elektron ticarət öz doyma nöqtəsinə yaxınlaşsa da, Azərbaycanda onun artım templəri daha yüksəkdir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Azərbaycanda elektron ticarətin dövriyyəsi 2015-ci ildə 2014-cü illə müqayisədə 1,9 dəfə artaraq 12,8 milyon manata çatmışdır. Bu dövriyyənin 12,3 milyonu qeyri-ərzaq mallarının payına düşür. Lakin buna baxmayaraq, 2014-cü ilin statistik məlumatına əsasən, Azərbaycanda elektron ticarət üzrə adambaşına düşən alış cəmi $0,35 idisə, bu göstərici Rusiyada $29, Türkiyədə $38, Çexiyada $217 təşkil edir.

**Fəxriyyə İKRAMQIZI**

# Vergi hesabatları vaxtında təqdim edilməlidir

*Vergi Məcəlləsinin tələblərinə əsasən, ƏDV, aksizlər, yol vergisi və mədən vergisi ödəyiciləri hesabat ayından, sadələşdirilmiş verginin ödəyiciləri isə hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanına bəyannamə verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidirlər. Gəlir və mənfəət vergisi üzrə hüquqi şəxslər və fərdi sahibkarlar rüb başa çatdıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli (bələdiyyə) büdcəyə ödəyirlər.*

Vergi bəyannamələrinin elektron formada təqdim olunması üçün Vergilər Nazirliyinin rəsmi internet saytı - www.taxes.gov.az vasitəsilə xüsusi keçid və ya www.e-taxes.gov.az - İnternet Vergi İdarəsi, habelə nazirlikdə tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) elektron bəyannamələrin qəbulu və işlənməsi üzrə xüsusi proqram təminatı yaradılmışdır. Bundan başqa, Vergi Məcəlləsinin 72.2-ci maddəsinə uyğun olaraq, vergi hesabatları vergi ödəyiciləri tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya elektron sənəd formasında) verilə bilər.

Bəyannamənin təqdim edilməsi (habelə verginin ödənilməsi) müddətinin sonuncu günü qeyri-iş gününə düşdüyü halda, bəyannamə növbəti iş günü təqdim oluna bilər. Hesabat qanunvericiliklə müəyyən edilmiş hallarda vergi orqanı tərəfindən qəbul edilmədikdə bu sənədin daxil olduğu gündən sonra üç iş günü ərzində vergi ödəyicisinə aşkar edilmiş dəqiqsizliklərin aradan qaldırılaraq vergi orqanına təqdim olunması barədə bildiriş göndərilir.

Hesabatın verilmə müddəti başa çatanadək vergi ödəyicisi gəlir vergisinin və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə müraciət edirsə və bu zaman verginin məbləği tamamilə ödənilərsə, hesabatın verilmə müddətinin üç ayadək artırılması mümkündür. Nəzərə almaq lazımdır ki, müddətin uzadılması verginin ödənilməsi vaxtını dəyişdirmir. Hesabat üzrə hesablanmış verginin məbləği ödənilmiş məbləğdən artıq olduqda, yaranan fərq verginin ödənilməsinin son müddəti günündən hesablanan faizlər nəzərə alınmaqla büdcəyə köçürülür, az olduqda isə hesablanmış vergi və faiz məbləğləri azaldılır.

Hesablanmasından və ya tətbiq edilməsindən şikayət edilən verginin, faizlərin və ya maliyyə sanksiyasının məbləği hesablanmaya (tətbiq edilməyə) uyğun şəkildə ödənildiyi halda və şikayətin təmin edilməsi nəticəsində vergi, faizlər və ya maliyyə sanksiyası tamamilə, yaxud qismən ləğv edilərsə, vergi ödəyicisinin kompensasiya və ya həmin məbləğlərə görə faizlər almaq hüququ vardır. Bununla yanaşı, vergi ödəyicisi şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasını ödəməmək hüququna malikdir.

İnzibati Xətalar Məcəlləsinə əsasən, dövlət rüsumunu tutan səlahiyyətli vəzifəli şəxslər tərəfindən dövlət rüsumunun düzgün tutulmamasına və ya dövlət büdcəsinə vaxtında və tam ödənilməməsinə görə vəzifəli şəxslərə 50 manat məbləğində cərimə tətbiq edilir. «Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

Bəyannamənin vaxtında təqdim edilməməsinə və vergilərin vaxtında ödənilməməsinə və ya yayındırılmasına görə maliyyə sanksiyaları tətbiq edilir. Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən, vergi hesabatını, habelə hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyat, əməliyyat olmadığı halda vergi orqanına vergi hesabatı əvəzinə arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Bundan başqa, verginin hesabatda göstərilən məbləği qəsdən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50%-i miqdarında maliyyə sanksiyası tətbiq edilir. Həmçinin vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

Hörmətli vergi ödəyiciləri, artıq cari ilin birinci rübü başa çatdığı üçün hesabatları təqdim etməyin və vergiləri ödəməyin vaxtıdır. Sizə uğurlar diləyirik.

*«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər*

**Rəşad SADIQOV**

# Banklararası Kart Mərkəzi istismara verilib

Azərbaycan Mərkəzi Bankı ölkədə nağdsız hesablaşmaların inkişafı, ödəniş kartları infrastrukturunun daha effektiv fəaliyyət göstərməsi istiqamətində tədbirləri davam etdirir. Mərkəzi Bankdan verilən məlumata görə, bu istiqamətdə həyata keçirilən növbəti tədbir ölkədə emissiya olunan ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə məlumatların emalı prosesinin tam şəkildə ölkə daxilində həyata keçirilməsini təmin edən Banklararası Kart Mərkəzinin (BKM) istismara verilməsidir. Beynəlxalq təcrübədə mövcud olan son nailiyyətlərin tətbiqi ilə Mərkəzi Bank tərəfindən yaradılan bu mərkəz artıq aprelin 1-dən müştərilərin istifadəsindədir.

BKM ölkədə prosessinq fəaliyyəti göstərən bütün təşkilatların infrastrukturları arasında interfeysi təmin edir və bununla da rezident banklar tərəfindən emissiya edilmiş ödəniş kartları ilə ölkə daxilində aparılan əməliyyatların emalı artıq bu infrastruktur vasitəsilə həyata keçirilir.

BKM-in yaradılması ödəniş kartları ilə aparılan əməliyyatlar üzrə hesablaşmalarda effektivliyin daha da artırılması, xidmət haqlarının bazar tələblərinə uyğun olaraq çevik tənzimlənməsinin təşkili, habelə nağdsız hesablaşmaların səmərəliliyinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

## Sadələşdirilmiş vergi ödəyicilərinin NƏZƏRİNƏ!

Sad l dirilmi verginin d yicil ri hesabat r b nd n sonrak ay n 20›d n gec olmayaraq d nm li olan verginin m bl i haqq nda vergi orqan na b yannam verm li v h min m dd td hesablanm vergini d vl t b dc sin d m lidirl r.

Sad l dirilmi vergi d yicisinin bird n art q t s rr fat s yekti (obyekti) varsa, o, eyni zamanda «Sad l dirilmi

**Əlavə məlumat üçün «195-1» Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz**

Vergilər Nazirliyi



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

## Vergi öhdəlikləri

***Daşınmaz əmlakın hüquqi şəxsin nizamnamə fonduna (kapitalına) pay şəklində qoyulması zamanı təsisçinin hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin 146.1-ci maddəsində aktivlərin şəxs və ya şəxslər qrupu tərəfindən hər hansı hüquqi şəxsə bu hüquqi şəxsdə iştirak payı əvəzinə verilməsi (hər hansı öhdəlik götürməklə və ya götürməməklə) və şəxsin və ya şəxslər qrupunun bilavasitə mübadilədən sonra hüquqi şəxsdə iştirak paylarının 100 faizinə sahib olduğu halda, aktivlərin verilməsinin onların vergiyə cəlb olunan təqdim edilməsi sayılmadığı göstərilmişdir. Məcəllənin 146.1.1-ci maddəsinə əsasən, şəxs və ya şəxslər qrupu aktivləri hər hansı hüquqi şəxsə bu hüquqi şəxsdə iştirak payı əvəzinə verirsə (hər hansı öhdəlik götürməklə və ya götürməməklə), aktivlərin verilməsi onların vergiyə cəlb olunan təqdim edilməsi sayılmır.

Vergi Məcəlləsinin 146.1-ci maddəsinin müddəaları şamil edilən aktivi alan iştirakçı üçün onun dəyəri aktivi verən iştirakçı üçün onun verilmə vaxtındakı dəyərinə bərabərdir və aktivin balans dəyəri onu alan şəxsə keçir (Vergi Məcəlləsi, maddə 146.2). Vergi Məcəlləsinin 164.1.5-ci maddəsinə uyğun olaraq, idxal edilən əmlak istisna olmaqla, müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın qoyulması (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda) ƏDV-dən azaddır.

Qeyd olunan müddəalara əsasən:

Təsisçi tərəfindən hüquqi şəxsin nizamnamə kapitalına pay şəklində qoyulmuş daşınmaz əmlak vergiyə cəlb olunmur.

Eyni zamanda, idxal edilən əmlak istisna olmaqla, müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın qoyulması (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda) təsisçi şəxslərin ƏDV-dən azad olunan əməliyyatlarına aid edilir.

Bunlarla yanaşı, aparılmış əməliyyat ƏDV-nin vergitutma obyektini təşkil etmədiyindən, həmin daşınmaz əmlaka görə ƏDV ödənilib əvəzləşdirildiyi halda, ödənilmiş və əvəzləşdirilmiş ƏDV-nin məbləği təqdim olunmanın baş verdiyi ayın ƏDV bəyannaməsində yenidən hesablanmaqla dövlət büdcəsinə bərpa edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## Auditin yenidən tənzimlənməsinin aktual problemləri

Dünən Bakıda Azərbaycan Respublikasının Auditorlar Palatasının fəaliyyətə başlamasının 20 illiyinə həsr olunmuş təntənəli iclas və «Müasir şəraitdə auditin yenidən tənzimlənməsinin aktual ploblemləri» mövzusunda beynəlxalq elmi-praktik konfrans öz işinə başlayıb. İclasda Auditorlar Palatasının yaradılmasının 20-ci ildönümü münasibətilə Prezident İlham Əliyevin Palatanın kollektivinə və üzvlərinə ünvanladığı təbrik məktubu oxunub.

Auditorlar Palatasının sədri Vahid Novruzov qurumun fəaliyyət istiqamətləri barədə məlumat verərək qeyd edib ki, Azərbaycanda auditor xidmətinin inkişafı və tətbiqinin genişləndirilməsi son dövrlərdə qəbul olunan və uğurla yerinə yetirilən bir sıra mühüm dövlət proqramlarında müstəqil auditin vacib problemlərinin müəyyənləşdirilməsi və həlli sayəsində mümkün olub. Ötən dövrdə Auditorlar Palatası 7 dövlət proqramının iştirakçısı olub və üzərinə düşən vəzifələri tam yerinə yetirib.

Tədbirdə iştirak edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri akademik Ziyad Səmədzadə bildirib ki, yaranmasının 20 illiyini qeyd edən Auditorlar Palatası bu dövr ərzində milli audit sisteminin bərqərar olması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə, bütövlükdə ölkə iqtisadiyyatının inkişafında auditin rolunun yüksəldilməsində yaxından iştirak edib: «Auditorlar Palatasının Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi, Azərbaycan İqtisadçılar İttifaqı ilə əməkdaşlığı yüksək səviyyədədir. Ümid edirəm ki, bu əməkdaşlığın gələcəkdə də davam etdirilməsi Azərbaycan iqtisad elminə əvəzsiz töhfələrini verəcək».

Konfransda 20-yə yaxın xarici ölkənin müvafiq audit və mühasibatlıq qurumlarının təmsilçiləri, beynəlxalq peşəkar təşkilatların, ölkənin dövlət və qeyri-hökumət təşkilatlarının, özəl sektorun, elmi-tədqiqat institutlarının nümayəndələri iştirak ediblər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2016-cı ilin yanvar-fevral aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala **1 milyard 834,9 milyon** manat vəsait yönəldilib.
- Cari ilin yanvar-fevral aylarında istehlakçılara **4 milyard 258,2 milyon** manatlıq və ya 2015-ci ilin eyni dövrü ilə müqayisədə **4,2%** çox məhsul satılıb.
- Azərbaycan, Ukrayna, Rusiya, Tacikistan və Gürcüstanın banklarında tətbiq olunan «Xəzri» sistemi vasitəsilə ötən il ərzində **312 mindən** artıq müştəri **121 milyon** manatdan çox pul köçürməsi həyata keçirib.
- Bakı Fond Birjasında Maliyyə Nazirliyinin dövlət qısamüddətli istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçirilib. Hərraca ümumi məbləği **15 milyon** manat, nominal dəyəri **100** manat, tədavül müddəti **91** gün olan istiqrazlar çıxarılıb.
- 2016-cı ilin ilk iki ayında Azərbaycanda **12,7 milyon** manatlıq kompüter, elektron və elektrik avadanlığı istehsal olunub.

# Azərbaycanda turizm fondları yaradılacaq

### *Yeni qanunda bu və digər məsələlər öz əksini daha əhatəli şəkildə tapacaq*

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında «Turizm haqqında» yeni qanun layihəsinin ilkin müzakirəsi keçirilib. Komitə sədri Hadi Rəcəbli bildirib ki, hazırda dövlət başçısının hökumət qarşısında qoyduğu mühüm vəzifələrdən biri qeyri-neft sahələrinin inkişaf etdirilməsidir. Turizm sektoru da öz perspektivlərinə görə bu istiqamətdə aparıcı yerlərdən birini tutur. Buna görə də turizmin inkişafı dövlət tərəfindən dəstəklənir və ölkəmizin tanıdılması məqsədilə Azərbaycan hökuməti müxtəlif beynəlxalq tədbirlərdə çoxlu sayda təbliğat, təşviqat işləri həyata keçirir. Bununla belə, respublikamızda turizmin yüksək səviyyədə inkişaf etdirilməsi üçün bir sıra vacib məsələlər öz həllini gözləyir. Ölkəyə gələn turistlərə yüksək standartlara uyğun xidmət göstərilməsi də bu sıradadır. Buna görə də mövcud qanunvericiliyin təkmilləşdirilməsinə böyük ehtiyac duyulur.



Komitə sədrinin sözlərinə görə, Azərbaycan güclü turizm potensialına malikdir və bu potensialdan maksimum yararlanmaq üçün köhnə qanunvericiliyin bazasında yeni mükəmməl qanun qəbul ediləcək. Milli Məclis tərəfindən 1999-cu ildə qəbul edilmiş 17 maddədədən ibarət olan «Turizm haqqında» Qanun artıq günün tələblərinə cavab vermir. Bunu nəzərə alaraq və ölkədə turizmin rastlaşdığı bir sıra problemlərin həlli, turizm sahəsinin daha sürətlə inkişaf etdirilməsi üçün yeni qanun layihəsi hazırlanmışdır. Layihə barədə Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin Əmək qanunvericiliyi sektorunun müdiri Adil Vəliyev məlumat verərək bildirib ki, sənəd 8 bölmədən, 87 maddədən ibarətdir. Qanunda turizm sahəsində dövlət siyasəti, tənzimləmə prinsipləri, məqsəd və vəzifələr, dövlət idarəetməsinin həyata keçirilməsi, turizm fəaliyyətinin təşkili, xidmət növləri, bu sahədə təhlükəsizliyin təmin edilməsi və digər məsələlər öz əksini tapıb.

İclasda iştirak edən Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin Planlaşdırma və inkişaf sektorunun müdiri Mahir Qəhrəmanov bildirib ki, yeni qanuna əsasən, Azərbaycanda turizm fondlarının yaradılması nəzərdə tutulur: «Bu günədək Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə verilən vəsaitlərin və digər formada xarici investisiyaların həcmi turizm sahəsində nəzərdə tutulan məsələlərin həllinə nail olmağa kifayət etməyib. Ona görə də yeni turizm fondlarının və daha çevik maliyyə mexanizmlərinin yaradılması, bu mexanizmlərin dövlət tərəfindən tənzimlənməsi vacibdir».

Turizm infrastrukturunun yaradılması məsələsinə toxunan M.Qəhrəmanov deyib ki, bu, mühüm məsələlərdən biridir: «Regionlarda yollarla, infrastrukturlarla bağlı layihələr həyata keçirilir. Lakin Azərbaycanı həmişə nümunə kimi göstərdiyimiz Türkiyə, İtaliya, İspaniya kimi turizm ölkəsinə çevirmək istəyiriksə, mütləq müəyyən turizm və rekreasiya zonaları yaradılmalıdır. Həmin zonalara dövlətin dəstəyi ilə birdəfəlik maliyyə vəsaitləri cəlb olunmalıdır. Həm yerli, həm də xarici investorların köməyindən istifadə edilməlidir».

M.Qəhrəmanovun sözlərinə görə, yeni qanun layihəsinə əsasən, ölkənin mövcud turizm potensialının, xidmətlərin həm yerli, həm də xarici səviyyədə tanıdılması planlaşdırılır. Məqsəd idarəetmə formatında turizm bürolarının yaradılmasıdır. Həmin bürolar regionlarda turizm xidməti sahələrinin formalaşmasına, onun təşviqinin gücləndirilməsinə təsir göstərəcək. Bununla yanaşı, layihədə turizm informasiya mərkəzləri şəbəkəsinin genişləndirilməsi, onların müasir dövrün tələblərinə cavab verən formada qurulması məsələsi ortaya qoyulub. Mövcud qanundan fərqli olaraq, yeni qanun layihəsində turizm növləri - sağlamlıq, sosial, ekoloji, ekstremal, kənd turizmi ayrıca qeyd edilib.

Müzakirələr zamanı deputatlar qanun layihəsi barədə fikirlərini açıqlayıb, rəy və təkliflərini veriblər. Qeyd olunub ki, sənəd ölkəmizdə yaxın gələcəkdə turizm sahəsinin daha da inkişaf etdirilməsinə və səmərəli fəaliyyətinə zəmin yarada bilər. Müzakirələrdən sonra iclasda səslənən fikirlər nəzərə alınmaqla, sənədi daha da təkmilləşdirmək üçün işçi qrupuna müvafiq tapşırıqlar verilib.

**Rəşad SADIQOV**

# Vətəndaşların həyatını asanlaşdıran ünvan

Azərbaycan brendi olan «ASAN xidmət» mərkəzləri vahid məkandan dövlət və özəl xidmətlərin göstərilməsini təmin edir ki, bu da vətəndaşlara əlavə xərc və vaxt itkisindən azad olmağa imkan yaradır. Hazırda «ASAN xidmət» mərkəzlərində 10 dövlət orqanı və bir sıra özəl şirkətlər tərəfindən ümumilikdə 240-a yaxın xidmət göstərilir. Bu mərkəzlərdə notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, məhkumluq barədə arayışların, miqrasiya xidmətləri, lisenziyaların verilməsi, hərbi qeydiyyat, kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı, əmək pensiyalarının təyin edilməsi, şəxsiyyət vəsiqəsinin, eləcə də ümumvətəndaş pasportunun verilməsi və dəyişdirilməsi, hüquqi və fiziki şəxslərə arxiv arayışlarının verilməsi və s. kimi xidmətlər göstərilir.

İndiyədək 5-i Bakı şəhərində, 4-ü isə regionlarda olmaqla vətəndaşların istifadəsinə 9 «ASAN xidmət» mərkəzi verilib, mərkəzlərin olmadığı regionlarda isə əhaliyə müasir texnoloji avadanlıqlarla təchiz edilmiş səyyar avtobuslar vasitəsilə xidmət göstərilir. Bu ilin əvvəlindən şəhərdaxili «Mobil səyyar ASAN xidmət» də fəaliyyətə başlayıb. Mərkəzlərə gəlməyə vaxtı olmayan vətəndaşlar bu xidmətdən rahatlıqla yararlana bilərlər. Sosial həmrəyliyin təmin edilməsi məqsədilə səyyar «ASAN xidmət» əlillər və sağlamlıq imkanları məhdud uşaqlar üçün əlavə xidmət haqqı ödənilmədən həyata keçirilir.

«ASAN xidmət» mərkəzlərində vətəndaşlara göstərilən xidmətlərin daha da asanlaşdırılması üçün bütün zəruri vasitələrdən istifadə edilir. Mərkəzlərdə vətəndaşlara daim internetə açıq olan kompüterlər vasitəsilə elektron xidmətlərdən yararlanmaq imkanı verilir. Dövlət orqanlarının saytları vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən vətəndaşlara «ASAN xidmət» əməkdaşları kömək göstərirlər.

Vətəndaşların vaxt itkisi ilə üzləşməməsi üçün onlara «ASAN xidmət» mərkəzlərinə gəlmədən öncə «Onlayn növbə» tutma imkanı yaradılıb. Bunun üçün www.asan.gov.az saytında «ASAN xidmət» mərkəzlərində göstərilən xidmətlərin siyahısından növbə almaq istədiyiniz xidmətin adını, daha sonra müraciət etmək istədiyiniz mərkəzi seçməli və müvafiq məlumatları daxil etməlisiniz. İstifadəçi seçdiyi vaxtda qeyd edilmiş «ASAN xidmət» mərkəzinə yaxınlaşarkən «Sifariş kodu»nu da özü ilə gətirməlidir. «ASAN xidmət» mərkəzinə qeyd etdiyi vaxtdan maksimum 15 dəqiqə gecikmə imkanı verilir. Bu vaxtdan gec olduqda «Onlayn növbə» aktivləşmir.

Fəaliyyətdə olduğu müddət ərzində «ASAN xidmət» mərkəzlərinə edilən müraciətlərin sayı




Bu günlərdə yeni bir xidmət də istifadəyə verilib: artıq vətəndaşlar «ASAN xidmət» mərkəzlərinə gəlmədən evdən, işdən və ya internet olan istənilən məkandan sənədlərini www.tercume.asan.az internet səhifəsi vasitəsilə göndərərək tərcümə xidmətindən yararlana biləcəklər. Bunun üçün tərcümə olunacaq sənədin şəkli və ya hər hansı formada elektron variantı saytda müvafiq xanaya yüklənilir, sənədin tərcümə olunacağı dil seçilir və kuryer xidmətindən istifadə edilib-edilməyəcəyi qeyd olunur. Əgər vətəndaş kuryer xidmətini seçməyibsə, o zaman sənədi hansı «ASAN xidmət» mərkəzindən götürmək istədiyini qeyd edir. Kuryer xidməti seçildiyi təqdirdə isə hazır sənəd vətəndaşın ünvanına çatdırılır. Sənəd qəbul olunub baxıldıqdan sonra tərcümənin vaxtı və ödəniləcək məbləğ haqqında məlumat vətəndaşa elektron poçt vasitəsilə göndərilir. Vətəndaş onlayn ödəniş etdikdən sonra sənədin tərcüməsinə başlanılır.

«ASAN xidmət»in fəaliyyətinə dair son statistik məlumatlara əsasən, fəaliyyətdə olduğu 1097 gün ərzində «ASAN xidmət» mərkəzlərinə 8.321.848 nəfər müraciət edib, 7.822.681 müraciət üzrə xidmət göstərilib. Həmin xidmətlərin 2.465.022-si sənəd qəbulu üzrə, 4.464.966-sı hazır sənəd, 892.693-ü informasiya xidməti üzrə olub. Müraciətlərin orta günlük sayı 10.803, təminolunma dərəcəsi isə 94% təşkil edib.

Sifariş əsaslı «Səyyar ASAN xidmət»lə bağlı qeydə alınmış çağırışların sayı 3442 olub və müraciətlər 100% təmin edilib. Göstərilən xidmətlərdən 1530 ikitərəfli çağırış xidməti, 1911-i isə birtərəfli çağırış üzrə olub. Qeyd edək ki, ikitərəfli çağırışlarda bir müraciət ilə həm sənəd qəbulu, həm də hazır sənədlərin verilməsi həyata keçirildiyindən, bu tip çağırışlar qeydə alınarkən bir müraciət kimi qeydə alınır.

Regional «Səyyar ASAN xidmət» vasitəsilə müraciətlərə baxılma göstəricisi




Regional «Səyyar ASAN xidmət» vasitəsilə isə 3 il ərzində 506.357 müraciət qəbul edilib və onlardan 491.781-i üzrə xidmət göstərilib.

**AYTƏN**

# Nəqliyyat vasitəsinin satışına vergi tətbiqi

Bir ildən artıq vətəndaşın mülkiyyətində olan və şəxsi məqsədlər üçün istifadə edilən avtomobilin satışına vergi tətbiq olunması ilə bağlı suallarla tez-tez rastlaşırıq. Mövzunu Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin Vergi qanunvericiliyinin tətbiqi şöbəsinin rəisi Əvəz Quliyev şərh edir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (VM) 13.2.37-ci maddəsinə əsasən, sahibkarlıq fəaliyyəti - şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətidir.



VM-in 96.1 maddəsində deyilir ki, rezidentlərin gəlirləri üzrə vergitutma obyekti vergi ili üçün onların bütün gəliri ilə həmin dövr üçün VM ilə müəyyənləşdirilən gəlirdən çıxılan məbləğ arasındakı fərqdən ibarət olan vergiyə cəlb edilən gəlirdir. Eləcə də Məcəllənin 97.1 maddəsində rezident vergi ödəyicisinin gəlirinin onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirlərdən ibarət olduğu bildirilir.

Sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlər muzdlu işə aid olmayan fəaliyyətdən gəlirlərə aid edilir. Sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir sahibkarlıq fəaliyyətindən gəlirə aiddir (VM, maddə 99.2.1). Fiziki şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən gəlir qeyri-sahibkarlıq fəaliyyətindən gəlirə aiddir (VM, maddə 99.3.6). Qeyri-sahibkarlıq fəaliyyətindən (VM 99.3) alınan, ödəmə mənbəyində vergiyə cəlb olunmayan gəlir əldə edən və bu səbəbdən də vergi orqanında gəlir vergisinin ödəyicisi kimi uçota alınmış fiziki şəxs hesabat ili ərzində əldə etdiyi gəlirdən, yəni əldə olunan vergi tutulan gəlirlərlə bu gəlirlərin əldə edilməsinə çəkilən və Vergi Məcəlləsinin X fəslinə uyğun olaraq gəlirdən çıxıla bilən xərclərin fərqindən Vergi Məcəlləsinin 101.2-ci maddəsində göstərilən dərəcələrlə gəlir vergisini hesablamalıdır.

Hesablanmış verginin məbləği «Gəlir vergisinin bəyannaməsi» ilə hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına bəyan edilir və həmin tarixdən gec olmayaraq dövlət büdcəsinə ödənilir.

VM-in 102.1.7-ci maddəsində qeyd edilmişdir ki, vergi ödəyicisinin sahibkarlıq fəaliyyətində istifadə olunan və ya istifadə edilmiş əmlakdan başqa, daşınan maddi əmlakın təqdim edilməsindən gəlirlər fiziki şəxslərin gəlir vergisindən azaddır.

Qeyd edilənlərə əsasən, vətəndaşın mülkiyyətində olan və şəxsi məqsədlər üçün istifadə edilən avtomobilin satışı halında, fiziki şəxs tərəfindən sahibkarlıq fəaliyyətində istifadə olunmayan avtomobilin təqdim edilməsi sahibkarlıq fəaliyyəti hesab olunmur və belə təqdimetmədən əldə olunan gəlirlər fiziki şəxslərin gəlir vergisindən azaddır.

**F.İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Dövlət Gömrük Komitəsi gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük orqanlarına bəyan edilməsi ilə əlaqədar olaraq, aprelin 4-dən etibarən elektron bəyanetmə sistemi ilə bağlı pilot layihə tətbiq edir.

Bakıda Dünya Gömrük Təşkilatı (DGT) və Dünya Poçt İttifaqının (DPİ) birgə seminarı keçirilir.

Rusiyanın turizm saytlarının məlumatına görə, 2016-cı ildə MDB ölkələrində istirahət üçün perspektivli sayılan turizm istiqamətlərinin reytinqində Azərbaycan MDB-də ən yaxşı ölkə seçilib və reytinq cədvəlinə liderlik edib.

Qazaxıstanın bir sıra turizm şirkətləri, iş adamları və kütləvi informasiya vasitələri nümayəndələri üçün Azərbaycana infotur təşkil olunub.

Mayın 17-də «Trans-Adriatik» (TAP) qaz boru kəmərinin Yunanıstanın Saloniki şəhərində təməlqoyma mərasimi keçiriləcək.

İran mallarının Azərbaycan vasitəsilə Gürcüstana, Ukraynaya və Orta Asiya respublikalarına ixracı artıb.

Azərbaycanda poçt şöbələrinin ünvanlarının axtarışını asanlaşdıran mobil tətbiq istifadəyə verilib.

# Xarici investisiyalı şirkətlərin sayı artır

*Səmərəli vergi siyasəti ölkə iqtisadiyyatına xarici sərmayələrin cəlb olunmasına şərait yaradır*

Son 10 ildə Azərbaycanda sərmayə yatıran xarici investorların sayı iki dəfədən çox artıb. Hazırda ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mini ötüb. İqtisadiyyat naziri Şahin Mustafayev «The Business Year» jurnalına müsahibəsində bildirib ki, Azərbaycana yatırılan sərmayələrdə həmin şirkətlərin fəallığı artmaqdadır və 2015-ci ildə ölkə iqtisadiyyatına qoyulmuş 20 milyard manat sərmayənin təxminən yarısı xarici investisiyaların payına düşür.

Azərbaycanda xarici investisiyalı və birgə müəssisələrin ölkələr üzrə pay göstəriciləri




Qeyd edilib ki, Azərbaycanda siyasi və iqtisadi sabitlik və investorların hüquq və mənafelərinin qorunması ölkənin biznes və investisiya mühitinin mühüm göstəricilərindəndir. Dövlət başçısı tərəfindən imzalanan sərəncam və fərmanlarda ölkəmizdə fəaliyyət göstərən əcnəbi sahibkarların hüquqlarının qorunmasının təmin edilməsi xarici investisiyalı şirkətlərin fəaliyyətini stimullaşdırıb. Bu şirkətlərin 30%-ə yaxını qardaş Türkiyəyə məxsusdur. Rusiya, Böyük Britaniya, ABŞ və Fransaya məxsus investisiyalı müəssisələrin sayı da kifayət qədərdir. Cənubi Koreya, Yaponiya, İran, Belarus, Litva, Latviya, İtaliya və digər ölkələrin şirkətlərinin sayında artım qeydə alınmaqdadır. Həmin şirkətlər Azərbaycanda dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə, qeyri-neft sənayesində podratçı, subpodratçı qismində də fəal iştirak edirlər.

Xarici sərmayəçilər son illər regionlara daha çox investisiya qoymağa maraq göstərirlər. 2004-2015-ci illər ərzində Azərbaycan regionlarına xarici investorlar tərəfindən 25 milyard manat sərmayə yönəldilib. Tranzit və logistika əməliyyatlarının səmərəliliyi, yeni fəaliyyətə başlayan Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının malların tranziti üzrə bir sıra güzəştli tariflər tətbiq etməsi və tarifləri aşağı salması xarici şirkətlərin marağını daha da artırıb. Bütün bu amillər ölkənin tranzit yükdaşımaları imkanlarının yüksəldilməsi və xarici şirkətlərin bu proseslərdə iştirakı üçün əlverişli şərait yaradıb. 2015-ci ildə lisenziyalaşma sahəsində atılan səmərəli addımlar, qeydiyyat sisteminin təkmilləşdirilməsi, yoxlama və icazələrin azaldılması, xarici sərmayəçilərin hüquq və mənafelərinin qorunması ilə bağlı gücləndirilmiş tədbirlər nəticəsində cari ilin ilk aylarında Azərbaycanda yeni xarici şirkətlər fəaliyyətə başlayıb.

Ölkəmizdə həyata keçirilən səmərəli vergi siyasəti də xarici sərmayələrin axınına geniş şərait yaradır. Respublikamızda investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırır. Son illərdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi ölkənin biznes mühitinə müsbət təsir göstərir. Vergilər Nazirliyinin məlumatına görə, 2016-cı ilin yanvar ayından mart ayının ortalarına kimi Azərbaycanda 114 xarici investisiyalı şirkət qeydiyyata alınıb. O da əlamətdardır ki, son illərdə qeyri-neft sektorunda xarici investisiyaya malik şirkətlər fəallaşıblar. Həmin şirkətlərin daha çox maraq göstərdikləri sənaye, tikinti və nəqliyyat sahələrinə ticarət, turizm və xidmət sektorları da əlavə olunub.

Vergilər Nazirliyinin məlumatında 2016-cı ildə Avropa və Amerikanın nüfuzlu şirkətlərinin Azərbaycanda öz nümayəndəliklərini açdığı, onların sırasında Almaniyanın «Sparkassen Advisory Services», Böyük Britaniyanın»General Engineering Services and Supply Company LP», ABŞ-ın «Tera International Group INC», Estoniyanın «SKYBUS», Birləşmiş Ərəb Əmirliklərinin «United Alliance Group LTD», Fransanın «AIRBUS DsGeoSa», Norveçin «EPİ limited» kimi şirkətlərinin təmsil olunduğu bildirilir.

**Elbrus CƏFƏRLİ**

# Mülkiyyət hüquqlarının təmin olunması istiqamətində növbəti addım

## Vətəndaşlara daşınmaz əmlakla bağlı təmənnasız hüquqi xidmətlər göstəriləcək

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən respublikada mülkiyyət hüquqlarının yüksək səviyyədə təmin olunması və qeydiyyat xidmətlərinin daha səmərəli göstərilməsi məqsədilə əhaliyə geniş hüquqi məsləhət xidmətlərinin göstərilməsinə start verilib. Komitənin mətbuat xidmətinin məlumatına görə, artıq mülkiyyət sahibləri daşınmaz əmlakla bağlı hər hansı əməliyyat aparmazdan öncə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin yerli ofislərində təmənnasız göstərilən hüquqi yardımlardan faydalana bilərlər. Başlıca məqsəd daşınmaz əmlakın qeydiyyatı ilə bağlı qanunvericilik və prosedurlar barədə vətəndaşları maarifləndirməkdir. Yeni xidmət mülkiyyət mənafelərinin qorunmasında ictimai məmnunluğun artmasına, daşınmaz əmlak bazarında aktivliyə də səbəb olacaq. Bu, əmlakın qeydiyyata alınması, alğı-satqısı, mənzillər, fərdi evlər, həyətyanı, pay və digər torpaq sahələrinə çıxarış və s. arayışların alınması qaydaları barədə hüquqi biliklərin artırılmasını təmin edir. Xidmət çərçivəsində istənilən şəxs komitənin ərazi qeydiyyat idarələrinə müraciət edir, burada öz əmlakı, aparmaq istədiyi əməliyyat, əmlakın qeydiyyatı və digər xidmətlərlə bağlı suallarını bildirir. Komitənin hüquqşünasları və qeydiyyat ekspertləri bütün sualları cavablandırır və müvafiq məsləhətlərini verir, zəruri hüquqi yardım göstərirlər. Müraciət edən şəxsə tələb olunan sənədlərin siyahısını izah etməklə yanaşı, həm də həmin sənədlərin hansı qurumlar tərəfindən verilməsi, əldə edilməsinin qanunla müəyyən olunmuş qaydaları barədə də məsləhətlər verilir.

Yeni xidmət mülkiyyət hüquqlarının qorunması ilə bağlı vətəndaşların qarşılaşdığı digər çətinliklərin də aradan qalxmasına zəmin yaradacaq. Komitədən verilən məlumata görə, bəzən vətəndaşlar qanunvericiliyə uyğun olmayan sənədlərlə çıxarış alınması üçün ərazi qeydiyyat idarələrinə müraciət edirlər. Həmçinin belə əmlaklar dövlət reyestrindən çıxarış olmadan alğı-satqı əməliyyatlarına cəlb olunur və vətəndaşlar məlumatsızlıq ucbatından onları alır, lakin sonradan sənəd çatışmazlıqları üzündən, çıxarış əldə edə bilmirlər. Bir sıra hallarda isə təyinatına zidd olan, mühafizə zonalarına aid edilən torpaqların alğı-satqı faktlarına da rast gəlinir. Lakin qanunvericiliklə qadağan olunduğu üçün vətəndaşlar sonradan belə torpaqlara dair çıxarış ala bilmirlər. Bu cür halların baş verməməsi üçün vətəndaşların əvvəlcədən məlumatlandırılması məqsədilə onlara məsləhətlər verilir və hüquqi yardım göstərilir.

**AYTƏN**

# Avtomobillərin icbari sığortasında kəskin artım olub

Fins.az saytı mart ayında avtomobillərin sığortalanmasında qeydə alınan kəskin artımla bağlı araşdırmanın nəticəsini açıqlayıb. Saytın məlumatına görə, artımın əsas səbəbi yol polisinin istifadəsinə yeni avtomobillərin verilməsi olub. İcbari Sığorta Bürosunun açıqlamasına görə, ötən ilin mart ayı ilə müqayisədə bu ilin eyni dövründə sığortalanan avtomobillərin sayı iki dəfəyə yaxın artıb və bir ayda Azərbaycanda icbari sığortalanan avtomobillərin sayı 109.842 ədəd olub. Ay ərzində icbari sığorta müqavilələrinin sayında 59,1%, yığılan sığorta haqlarının məbləğində isə 76,8% artım baş verib. Büro ilə yanaşı, sığorta şirkətləri də avtomobillərin icbari sığortasında xeyli artımın olmasını təsdiq ediblər.

«Azərsığorta» şirkətinin idarə heyətinin sədr müavini Aftandil Hacıyev hesab edir ki, avtomobillərini icbari qaydada sığortalayanların artması cərimə qorxusu ilə bağlıdır. Sədr müavini eyni təcrübənin daşınmaz əmlakın icbari sığortasında da tətbiq edilməsinin effektli ola biləcəyini açıqlayıb: «Avtomobil sığortası ilə müqayisədə evlərin icbari sığortası elə də böyük vəsait tələb etmir. Bir illik ev sığortasına cəmi 30-50 manat ödəmək lazımdır. Amma indi ölkədə ev sığortalayan, demək olar ki, yoxdur». Onun sözlərinə görə, hazırkı vəziyyətdə avtomobillərin icbari sığortasında olduğu kimi, daşınmaz əmlakın icbari sığortasında da cərimələr artırılmalı və səmərəli nəzarət mexanizmi olmalıdır.

Məsələ ilə bağlı «AtaSığorta» şirkətinin idarə heyətinin sədr müavini Ramil Abdullayev bildirib ki, avtomobillərin icbari sığortasında son müşahidə edilən artım əsasən iki səbəblə bağlıdır. Birincisi, İnzibati Xətalar Məcəlləsinə martın 1-dən edilən dəyişikliyə əsasən icbari sığortasız avtomobilləri radarlar qeydə alır və avtomobil sahibi elektron formada cərimələnir. Cərimə qorxusu şirkətləri avtomobillərini təcili sığortalamağa vadar edir. Gəlirlərin azaldığı şəraitdə şirkətlər cərimələrə görə əlavə xərcə düşmək istəmirlər. Hüquqi şəxslər daha çox bu səbəbə görə avtomobillərin sığortası üçün müraciət edirlər. İkincisi, avtmobillərə texniki baxış kampaniyası başlayıb. Adi sürücülər də texniki baxışdan keçmək üçün avtomobillərini icbari sığortalamağa can atırlar.

Sığorta şirkətləri ilə yanaşı, sığorta agentlikləri də artımın müşahidə edildiyini bildirirlər. «Qarant» sığorta agentliyinin rəhbəri Ramin Səmədov qeyd edib ki, Novruz bayramı ərəfəsində avtomobillərin icbari sığortası ilə bağlı müraciətlər 30%-ə qədər artıb. Bayramla əlaqədar rayonlara avtomobillərlə üz tutanlar radara düşməmək üçün avtomobillərini sığortalamağa üstünlük verdilər. Bu da icbari sığortalananların sayında özünü göstərib.



# Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması

Maliyyə Nazirliyi Kollegiyasının təsdiq etdiyi «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»na görə, kiçik sahibkarlıq subyektləri maliyyə hesabatlarını kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun şəkildə tərtib etmək hüququna malikdirlər. Qaydalara əsasən, kiçik sahibkarlıq subyektinin rəhbəri bu vəzifələri həyata keçirməlidir:

- sadələşdirilmiş uçotun düzgün aparılması üçün şərait yaradılması;
- sadələşdirilmiş uçotun aparılması;
- həyata keçirilən bütün maliyyə-təsərrüfat əməliyyatlarının «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması kitabı»nda müəyyən olunmuş qaydada əks etdirilməsi;
- təsərrüfatdaxili ehtiyatların aşkara çıxarılması və səfərbər edilməsi;
- sadələşdirilmiş uçotun tələblərinə riayət edilməsinə nəzarət.

Kiçik sahibkarlıq subyektinin rəhbəri baş mühasib və ya mühasib cəlb etmədikdə, sadələşdirilmiş uçotun aparılmasını bu sahədə ixtisaslaşdırılmış təşkilat vasitəsilə həyata keçirmək və ya bu uçotu şəxsən aparmaq hüququna malikdir. Kiçik sahibkarlıq subyektində sadələşdirilmiş uçot hesablama və ya kassa metodu əsasında həyata keçirilməlidir.

### İlkin uçot sənədləri

Sənədə əsasən, təsərrüfat əməliyyatlarının baş verməsi faktını əks etdirən ilkin uçot sənədləri mühasibat uçotu registrlərində yazılışlar üçün əsas hesab olunur. İlkin uçot sənədləri ya əməliyyatların baş verdiyi anda, ya da bilavasitə əməliyyatlar başa çatdırıldıqdan sonra tərtib edilir. İlkin uçot sənədlərində sənədin adı, nömrəsi, kodu, tərtib edilmə tarixi, yeri, sənədi tərtib edən təşkilatın adı, təsərrüfat əməliyyatlarının məzmunu, ölçüləri və məbləği, məsul şəxslərin vəzifələri, soyadı, adı, atasının adı kimi zəruri rekvizitlər əks etdirilməlidir. Əməliyyatların xarakterindən və kiçik sahibkarlıq subyektinin fəaliyyətinin xüsusiyyətindən asılı olaraq, ilkin uçot sənədlərinə digər əlavə rekvizitlərin daxil edilməsinə yol verilir. İlkin uçot sənədlərinin keyfiyyətli tərtibatı, sənədlərdəki məlumatların doğruluğu həmin sənədləri tərtib etmiş və imzalamış şəxslər tərəfindən təmin olunur.

Pul və hesablaşma sənədlərini, maliyyə və kredit öhdəliklərini kiçik sahibkarlıq subyektinin rəhbəri tərəfindən təsdiq olunmuş siyahıya əsasən birinci və ikinci imza etmək hüququ olan şəxslər, mühasib cəlb edilmədikdə birinci imza hüququ olan şəxs imzalamalıdır. Birinci imza kiçik sahibkarlıq subyektində ümumi rəhbərlik funksiyasını, ikinci imza isə mühasibatlığa rəhbərlik funksiyasını icra edən şəxslərə mənsub olur.

Müxtəlif qiymətlilərin qəbulu və ya təhvili ilə əlaqədar əməliyyatlar ilkin uçot sənədləri əsasında həyata keçirilərsə, əməliyyatlarda iştirak edən hüquqi və ya fiziki şəxslərə sənədlərin bir nüsxəsi təqdim edilməlidir və bu öhdəlik həmin əməliyyatları rəsmiləşdirən şəxsin üzərinə düşür.

Qaydalara əsasən, ilkin uçot sənədlərində qeydsiz düzəlişlərə yol verilmir. Səhvlərin düzəlişi həmin sənədə imza atmış şəxsin imzası ilə düzəlişin tarixi göstərilməklə təsdiq edilməlidir. Kassa və bank sənədlərində heç bir düzəlişə yol verilmir.

### Mühasibat uçotu registrləri

Kiçik sahibkarlıq subyektinin müəyyən dövr ərzində baş vermiş təsərrüfat əməliyyatları haqqında məlumatlar mühasibat uçotu registrlərində qeyd olunur. Mühasibat uçotu registrləri xüsusi qrafalara bölünmüş kitablarda, kartlarda, ayrı-ayrı vərəqələrdə və hesablama texnikası istifadə edilən zaman müxtəlif məlumat daşıyıcılarında başdan-başa, fasiləsiz, xronoloji və sistemli qeydiyyatdan keçirmə üsulu ilə aparılmalıdır. Mühasibat uçotu registrləri kağızda və ya elektron məlumat daşıyıcılarında tərtib olunmalıdır. Mühasibat uçotu registrlərində qeydsiz düzəlişlərin edilməsinə yol verilmir. Buraxılmış səhvlərin düzəlişi həmin sənədi imzalamış şəxs tərəfindən imzalanmaqla və düzəlişin tarixi göstərilməklə təsdiq edilməlidir.



Kiçik sahibkarlıq subyekti mühasibat uçotu registrlərini Azərbaycan dilində aparmalıdır. Mühasibat uçotu registrlərinin düzgün tərtib olunması və onlarda əks etdirilmiş məlumatların saxlanması baş mühasib və ya kiçik sahibkarlıq subyektinin rəhbəri tərəfindən müəyyən edilmiş şəxs tərəfindən həyata keçirilir.

**AYTƏN**

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Kiçik və orta bizneslə məşğul olan Sərvər Müseyib oğlu İlyasov sonradan biznesini böyüdərək «AF-OİL», «Ağrıdağ» və «Haçadağ» məhdud məsuliyyətli cəmiyyətləri (MMC) təsis edib. Bu müəssisələrin fəaliyyəti ərzaq və qeyri-ərzaq mallarının satışından tutmuş xidmət, məişət işləri, yanacaq materiallarının satışı, müxtəlif növ barter əməliyyatlarınadək böyük bir sahəni əhatə edib. S.İlyasov milyonlarla manat gəlir əldə etsə də, 3 il ərzində dövlət büdcəsindən 2 milyon manatdan artıq məbləğdə vergini yayındırıb.

Vergi orqanlarının apardıqları səyyar yoxlamalar zamanı sahibkarın «Haçadağ» MMC-də 578.173,99, «Ağrıdağ» MMC-də 135.225,30, «AF-OİL»də isə 1.465.356 manat həcmində vergini mənimsədiyi təsdiq olunub. Onun dövlət büdcəsindən yayındırdığı vergilərin ümumi məbləği 2 milyon 178 min 754,91 manat təşkil edib. Vergi yoxlamasının yekununa dair toplanmış materiallar əsasında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən S.İlyasov barəsində CM-in 213.2.2-ci maddəsi ilə hər bir MMC üzrə ayrıca cinayət işi açılıb, sonradan onların istintaqı bir icraatda birləşdirilib. İstintaq zamanı müəyyən edilib ki, S.İlyasov sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu zaman vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi vəzifəsini, digər mühasibat işlərini özü yerinə yetirib və bütün rəsmiləşdirilmiş sənədlərə şəxsən imza atıb. Bununla da Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.4, 16.1.7, 53.1, 71.1, 71.2, 72, 77.3, 78.1, 82, 103.1, 105.1, 220 və 221-ci maddələrinin tələblərini pozaraq, baş vermiş vergi cinayətlərində özü cavabdeh şəxs olub.

Təqsirləndirilən şəxs qismində dindirilən S.İlyasov CM-in 213.2.2-ci maddəsi üzrə elan olunmuş ittihamda özünü təqsirli bilərək vergi ödənişlərindən mənimsədiyi vəsaitləri şəxsi məqsədləri üçün istifadə etdiyini etiraf edib. Şahid qismində dindirilən şəxslərin ifadələri, alğı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında onun törətdiyi cinayət əməlləri tam sübuta yetirilib.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hökmü ilə Sərvər Müseyib oğlu İlyasov 5 il 3 ay müddətinə azadlıqdan məhrum edilib.

**ELBRUS**

# Sintetik uçotun aparılması ilə bağlı yeni qayda

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

### Bank əməliyyatları üzrə sintetik uçotun aparılması

Hörmətli oxucular, bu dəfə Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının 18 yanvar 2016-cı il tarixli Q-02 nömrəli Qərarı ilə təsdiq edilmiş «Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası»na əsasən təşkilatlarda (müəssisələrdə) bank əməliyyatları üzrə sintetik uçotun aparılmasını əsas məqamlar üzrə təhlil edəcəyik.

Bu Qaydanın bank əməliyyatları üzrə sintetik uçotun aparılmasını müəyyən edən müddəalarından aydın olur ki, bank köçürmələri üzrə baş verən əməliyyatlar bağlanmış müqavilələr, hesab-faktura, elektron vergi hesab-fakturası, bank çıxarışları və onlara əlavə edilmiş sənədlər (bank qəbzləri) əsasında rəsmiləşdirilir və bu sənədlər müəyyən olunmuş müddətlərdə mühasibatlığa təhvil verilir.

Təşkilatlarda (müəssisələrdə) bank əməliyyatları üzrə sintetik uçotun aparılması ilə əlaqədar Qaydadakı müddəalar aşağıdakı kimidir:

- bağlanmış müqavilənin şərtlərinə əsasən vəsaitin köçürülməsi üçün əsasverici sənədlər (hesab-faktura, elektron vergi hesab-fakturası və sair) xəzinədarlıq orqanlarına və ya müvafiq banklara təqdim olunur;

- alınmış mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə ödənişlər üzrə sənədlər, həmçinin bank çıxarışları və onlara əlavə edilmiş sənədlərə əsasən mühasibat yazılışları (müxabirləşmələr) verilir;

- bir neçə xəzinə və ya bank hesabları olduğu halda, pul vəsaitlərinin hərəkətinin uçotu hər bir hesab üzrə ayrı-ayrılıqda tərtib edilmiş memorial orderlərdə aparılır və həmin memorial orderlərə müvafiq sıra nömrələri verilir;

- bank əməliyyatı başa çatdıqdan sonra xəzinədarlıq orqanları və ya banklar tərəfindən təqdim olunmuş çıxarışlara və ona əlavə edilmiş sənədlərə əsasən, «Bank hesablaşma hesabları» sintetik hesabının müvafiq subhesabı üzrə pul vəsaitinin qalığı banklarda (xəzinədarlıq orqanlarında) olan hesablardakı pul vəsaitinin qalığına uyğun olmalıdır;

- bank əməliyyatları az olan təşkilatlarda bir neçə bank çıxarışının əsasında oxşar əməliyyatlar üzrə mühasibat yazılışları (müxabirləşmələr) edilən zaman memorial orderin «Əməliyyatlar üzrə ilkin uçot sənədinin tarixi» qrafasında yazılışın həyata keçirildiyi dövrün başlanğıc və son tarixləri göstərilir.

Bir neçə maraqlı məqama toxunaq. Köçürmə əməliyyatının aparılması üçün tərtib olunan ödəniş tapşırığını banka təqdim edərkən ödəniş tapşırığında əsas diqqət çəkən məqam ödənişin təyinatı yerində əks etdirilən məzmundur (istinaddır). Bəzən banklar tərəfindən mütləq qaydada hesab-faktura tərtib edilməsi və ödəniş tapşırığında bu hesab-faktura barədə qeydlərin olması tələbi irəli sürülür. Sual yarana bilər ki, hesab-faktura olmadan digər hər hansı bir sənədlə köçürmə əməliyyatı aparmaq olmazmı? Əlbəttə, olar. Məsələn, bağlanmış müqavilələr barədə qeydləri (müqavilənin nömrəsini, tarixini və istinad maddələrinin nömrəsini), mal satışını təsdiq edən qaimə-fakturanın, xidmət və işlərə dair aktların nömrəsini və tarixlərini ödənişin təyinatı yerində əks etdirməklə ödəniş tapşırığını tərtib etmək və banka köçürmə aparılması üçün təqdim etmək olar və qanunvericilikdə buna hər hansı qadağa qoyulmayıb. Hesab-fakturanın tərtib edilməsi o halda səmərəli olur ki, bu sənəd tərəflər arasında müəyyən zaman aralığında həyata keçirilən bir neçə əməliyyatın yekun hesablaşması kimi tərtib edilsin. Bəzən elə olur ki, bağlanmış müqavilədə bank hesabları barədə rekvizitlər əks etdirilmir və ya əks etdirilibsə, sonradan pul ödənişləri üçün başqa bank hesabları təklif olunur. Belə halda müqavilədə göstərilməyən və ya yenilənmiş (dəyişdirilmiş) bank hesablarının rekvizitləri barədə qarşı tərəf üçün hesab-faktura tərtib olunur.

Xüsusilə qeyd edilməlidir ki, hesab-faktura yalnız pulun ödənilməsini (ötürülməsini) həyata keçirmək üçün qarşı tərəfə əsas verən sənəddir. Bu sənəd maliyyə sənədi kimi tanınmamalıdır, yəni hər hansı bir təsərrüfat əməliyyatının baş verməsini təsdiq edən sənəd kimi qəbul edilməsi düzgün deyildir. Hesab-faktura birtərəfli qaydada, yəni onu tərtib edən şəxs tərəfindən imza və möhürlə təsdiqlənir və məktub şəklində qarşı tərəfə təqdim olunur. Yazılış, məzmun və tərtib olunma baxımından hesab-faktura «satıcı tərəfindən mal satıldı», «icraçı tərəfindən iş görüldü və ya xidmət göstərildi» kimi əməliyyatların baş verməsi faktını təsdiqləmir, sadəcə, qarşı tərəfə pulun hara köçürülməsi istiqamətini müəyyənləşdirir. Mal satışını təsdiq edən sənəd kimi qaimə-faktura, iş görülməsini və ya xidmət göstərilməsini təsdiq edən sənəd kimi isə işlərin və ya xidmətlərin təhvil-təslim aktları hesab edilə bilər.

Bank əməliyyatlarının sintetik uçotu ilə bağlı digər bir məqam ondan ibarətdir ki, ay ərzində daha çox və həmişə təkrarlanan eyni əməliyyatları bir mühasibat yazılışı ilə memorial orderdə əks etdirmək olar. Məsələn, bank xidməti haqları, kredit faizləri, konvertasiya haqları barədə məbləğlərin hər birini müvafiq olaraq ikili yazılışla əks etdirmək olar.

Mühasiblərə tövsiyə olunur ki, müəssisəyə xidmət göstərən bankdan bütün valyutalardakı hesablara dair imza və möhürlə (və ya ştampla) təsdiqlənmiş aylıq bank çıxarışları alsınlar və aylıq bank sənədlərinin üzərinə tikməklə arxivləşdirsinlər.

## vergi təqvimi

| APREL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 aprel - «(1) və (2)»
20 aprel - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələrini dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.
Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.
İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.
Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.
Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.
Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.
Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.
**(«1-2») - Gəlir vergisi** (İdman mərc oyunları üzrə): İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.
**(«9-1») - Sadələşdirilmiş vergi** (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə): Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.
Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.
«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Latviyada həmrəylik vergisi tətbiq olunur



2016-cı ilin yanvarından qüvvəyə minmiş həmrəylik vergisi haqqında qanuna əsasən, vətəndaşların əmək haqlarının dövlət məcburi sosial sığorta ayırmalarının limitini aşan hissəsinə vergi tətbiq ediləcək. Maliyyə Nazirliyi bildirir ki, 2015-ci ildə bu limit ildə 48.600 avro və ya ayda 4000 avroya yaxın bir məbləğ təşkil edirdi, 2016-cı ildə isə həmin rəqəm artıb. Yeni vergini təxminən 4700 nəfər yüksək əməkhaqqı alan şəxs ödəyəcək.

Həmrəylik vergisinin dərəcəsi dövlət sosial sığorta ayırmalarının həddində olacaq - 34,09%. Bu vergi də eynən işçi və işəgötürən arasında bölünəcək: 23,59% işəgötürən, 10,5% isə işçi tərəfindən ödəniləcək. 2016-cı ildə dövlət büdcəsinə həmrəylik vergisindən daxilolmalar 40,9 milyon avro, 2017 və 2018-ci illərdə isə 46,095 milyon avro həcmində planlaşdırılır.

Qeyd edək ki, həmrəylik vergisinin tətbiqini sahibkarlar etirazla qarşılayıblar.

# Vergitutmanın əsas təmayülləri

Son bir il ərzində dünya üzrə orta vergi dərəcələrində əhəmiyyətli dəyişiklik olmayıb. Ən bürokratiyalaşmış vergi sistemi olan ölkə yenə Braziliyadır, burada şirkətlər vergi ödənişinə ildə 2600 saat vaxt itirirlər.

KPMG ekspertlərinin rəyinə görə, bu il dünya iqtisadiyyatının ləngidiyi bir şəraitdə əksər ölkələrin hökumətləri büdcə daxilolmalarını artırmağa cəhd etdikləri halda, dərəcələri birbaşa artırmaqdan vaz keçiblər. Digər metodlardan daha çox istifadə edilib: vergi bazası genişləndirilib, verginin çıxılması və digər güzəştlərin sayı məhdudlaşdırılıb. İl ərzində gəlir vergisinin orta dərəcəsi cəmi 0,41% artaraq 31,53%-ə çatıb. Yeddi ölkədə vergi dərəcələri artıb, səkkiz ölkədə isə azalıb. Şəxsi gəlirlərdən vergi tutulması göstəricisi üzrə Qəraib dənizindəki Aruba adası liderliyini saxlayır. Ən yüksək vergi tutulan beş ölkə siyahısından çıxan İspaniyada vergi dərəcələrində daha əhəmiyyətli azalma olub. 2015-ci ildə aparılmış vergi islahatları sayəsində yüksək gəlirli vətəndaşlar üzrə gəlir vergisinin maksimal dərəcəsi 52%-dən 47%-ə endirilib. Bununla belə, İspaniyada maksimal dərəcənin tətbiq olunduğu gəlirlərin həddi 300 min avrodan 60 min avroya endirilib.

Korporativ verginin 2014-cü ildə 23,64% olan dərəcəsi 2015-ci ildə çox cüzi artaraq 23,68% olub. Bu sahədə 55%-lik dərəcə ilə Birləşmiş Ərəb Əmirlikləri öndədir. Qeyd edək ki, bu ölkədə həmin dərəcə yalnız neft-qaz hasil edən şirkətlərə aid edilir. Korporativ verginin dərəcəsini 15 ölkə dəyişdirib ki, onlardan 11-də bu göstərici azaldılıb. Dolayı vergilərin (ƏDV və bu kimi) federal səviyyədə dəyişməsi cəmi dörd ölkədə qeydə alınıb. Dünya üzrə orta ƏDV dərəcəsi 15,79% səviyyəsində qalır. KPMG-nin mütəxəssisi Tim Gillisin bildirdiyinə görə, dünya üzrə ƏDV-nin tətbiqi genişlənib, artıq 150-dən artıq ölkədə bu vergi tutulur. Onun fikrincə, bu ölkələrin əksəriyyətində ƏDV-nin dərəcəsi optimaldır - 15-20%. Dərəcə qaldırıldıqda biznesin «kölgəyə» çəkilməsi, endirildikdə isə büdcə daxilolmalarının azalması riski artır. Bu ümumdünya təmayülündə ən parlaq istisnanı isə ABŞ təşkil edir, burada indiyədək ƏDV tətbiq olunmur, əvəzində isə ştatların əksəriyyətində satışdan vergi tutulur.

PWC şirkətinin hesablamalarına görə, dünya üzrə biznesə orta vergi yükü (ödənilən bütün vergilərin cəmi) gəlirlərin 40,8%-ni təşkil edir. Şirkətlər ildə orta hesabla 25,6 ödəniş edir və buna 261 saat vaxt sərf edirlər. Hər üç göstəricidə keçən il azalma olub. Ölkələr üzrə götürdükdə, vergi yükü fərqli istiqamətlərdə dəyişib: 46 ölkədə artıb, 41 ölkədə isə azalıb. Regional baxımdan, Yaxın Şərqdə vergi ödəmək daha asan olduğu halda, Cənubi Amerikada bu, daha mürəkkəbdir.

# İspaniyada ƏDV turistlərin bank kartına qaytarılacaq

Əlavə dəyər vergisinin (ƏDV) sürətli qaytarılması sisteminin («Fast Refund») işə salınması ilə İspaniyaya Avropa Birliyinə daxil olmayan ölkələrdən gələn turistlər üçün ƏDV onların birbaşa bank kartlarına qaytarılacaq. Verginin qaytarılması üçün turistlər İspaniyanı tərk etməzdən əvvəl gömrükdə qəbzləri möhürlətməlidirlər.

Ekspertlərin sözlərinə görə, ƏDV-nin sürətli qaytarılma sistemi turizm alış-verişinin stimullaşdırılmasına xidmət edəcək. Gözlənilir ki, ƏDV-nin sürətli qaytarılması sisteminin tətbiqi xarici turistlərin İspaniyada 15% daha çox pul xərcləməsinə gətirəcək. İspaniyada Avropa Birliyinə daxil olmayan ölkələrin vətəndaşları ƏDV-ni yalnız kiçik alğı-satqı əməliyyatları zamanı, yəni gündə 90,16 avro alışlar zamanı qaytara bilərlər. Turizm şəhərlərində mağazaların əksəriyyəti turistlərə «Tax Free» rəsmiləşdirilməsini təklif edir. Alğı-satqı məbləğindən maksimal qaytarılan hissə isə 16% təşkil edir.

# Belarusda vətəndaşların bank əmanətlərinə vergi tətbiq edilib

Prezident Aleksandr Lukaşenkonun fərmanı ilə «Əmanətlər (depozitlər) haqqında» Qanuna edilmiş dəyişikliyə əsasən, rubl və xarici valyuta əmanətlərinin bəzi növlərindən əldə olunan gəlirlərə 13% həcmində gəlir vergisi tətbiq edilib. Fərmana əsasən, 2016-cı il aprelin 1-dən bu norma hələlik bir ildən az müddətə olan rubl əmanətlərinə və iki ildən az müddətə olan valyuta əmanətlərinə şamil edilir. Əgər əmanətlər «tələb olunanadək» məqsədli depozitlər üzrə qoyulmuş əmanətlərin faiz dərəcəsindən aşağı dərəcə altında yerləşdirilərsə, vergi ödəmək lazım gəlmir. Hazırda rubl depozitləri üzrə «tələb olunanadək» məqsədli əmanətlərin illik faiz dərəcəsi 0,5%, xarici valyuta üzrə depozitləri üzrə isə illik 0,1%-dir. Fərman yeni bağlanmış və uzadılmış müqavilələrə şamil edilir. Bundan başqa, Belarusda bank depozitlərinin iki yeni növü tətbiq edilir: qaytarılmayan (vəsaitlərin vaxtından əvvəl qaytarılmasını nəzərdə tutmayan) və qaytarılan (əmanətin vaxtından əvvəl qaytarılması imkanını nəzərdə tutan).

Əvvəllər ölkədə bütün depozitlər qaytarılan idi - müqavilənin müddətindən asılı olmayaraq, bank beş gün ərzində əmanətçinin tələbinə əsasən onun vəsaitini (faizləri ödəmədən) qaytarmağa məcbur idi. Yeni fərmana əsasən, əmanətçi «təcili qaytarılmaz» və ya «şərti qaytarılmaz» bank depoziti müqaviləsi üzrə əmanətlərinin vaxtından əvvəl qaytarılmasını tələb edə bilməz. «Qaytarılan depozitlər»in isə vaxtından əvvəl qaytarılmasını tələb etmək mümkündür.



## Xəbər lenti

**Çin**də alındığı tarixdən iki il vaxt keçməmiş mənzillərin satışı üçün əlavə dəyər vergisi tətbiq olunacaq. Maliyyə Naziri Lou Çziveyin bildirdiyinə görə, ƏDV məbləği mənzilin satış qiymətinin 5%-ni təşkil edəcək.

**İsrail**in Konstitusiya məsələləri, hüquq və ədliyyə üzrə parlament komitəsinin təsdiq etdiyi qanun layihəsinə görə, vergidən yayınma çirkli pulların yuyulması qəbilindən olan cinayətlərə aid edilib.

**Albaniya** vergi bazasının genişləndirilməsi, eləcə də gəlirlərə nəzarət sisteminin gücləndirilməsi barədə düşünməlidir. Bunu Beynəlxalq Valyuta Fondu tövsiyə edib. Vergi bazasının genişləndirilməsi tədbirlərindən biri kimi gələn ilin sonuna qədər dəyərə əsaslanan əmlak vergisinin tətbiqi nəzərdə tutulur.

**Böyük Britaniya**nın vergi administrasiyası keçən il kiçik və orta biznesdən 470 milyon funt sterlinq vergi toplayıb. «UHY Hacker Young» şirkəti vergi xidmətinin hədəfi iri biznesdən xırda oyunçulara yönəltməsindən narahatlığını bəyan edib. Keçən il iri müəssisələrdən yığılan vergilərin məbləği 13% azalaraq 4 milyard funtdan 3,5 milyarda düşmüşdü.

**Belarus**da aprelin 1-dən yerli mobil operatorlar və «Beltelekom» simli rabitə operatoru üçün əlavə dəyər vergisi 20%-dən 25%-ə qaldırılıb. Maliyyə naziri Vladimir Amarin bildirib ki, bu artım internet provayderləri və simli rabitə xidməti təchizatçıları da daxil olmaqla, telekommunikasiyanın bütün sahələrini əhatə edir.

**Küveyt** dövlətinin Nazirlər Kabineti korporativ gəlirlərdən 10% vergi tutulması təklifini qəbul edib. Bu addımın atılması 40 milyard ABŞ dollarına çatan büdcə kəsirinin aradan qaldırılmasına yönəldilib.

**Avstraliya**nın federal hökuməti bitkointlərlə aparılan tranzaksiyalara tətbiq olunan ikiqat vergitutmanı ləğv etmək və çirkli pulların yuyulmasına qarşı alternativ tədbirlər görmək niyyətində olduğunu bəyan edib.

## krossvord




**Yuxarıdan aşağı:** 1.XVII əsrdə Fransada yaranmış memarlıq və incəsənət üslubu; 2.İran İslam Respublikasının birinci dini lideri və qurucusu; 3.Birləşmiş Millətlər Təşkilatının 7-ci Baş katibinin soyadı; 4.Azərbaycanın xalq artisti, tanınmış opera müğənnisinin soyadı; 6.Çilidə vulkan adı; 7.Respublikamızda rayon; 9.Tək, yeganə; 13.Əlavə ünsiyyət vasitəsi kimi tətbiq edilən əl-qol hərəkəti, mimika; 15.Mətbəx mebelinin bir hissəsi. Qab-qacaq saxlamaq üçün xüsusi dolab; 16.«Kurtlar vadisi»nin baş qəhrəmanı, Polad Ələmdar obrazını canlandıran türk aktyorun adı; 17.Katolik kilsələrində yüksək ruhani vəzifələrdən biri; 18.Məşhur fransız landşaft arxitektoru. Versal bağlarının müəllifi; 20.Məhvolma həddində olan pişikkimilər fəsiləsinin qar bəbirləri cinsinə aid heyvan növü; 21.Adətən, sirk tamaşalarında iştirak edən komik artist. **Soldan sağa:** 1.Məşhur rus bəstəkarı, pianoçusu və dirijoru; 5.Notlardan biri; 8.Azərbaycan simli musiqi alətlərindən biri; 9.Kişi adı. Qurtulma, azadolma mənalarını verir; 10.İranda şəhər; 11.Rusiya Federasiyasında Salexard şəhərinin 1933-cü ilə qədər olan adı; 12.Əmtəə, xammal, qiymətli kağızların satışı ilə məşğul olan, vaxtaşırı fəaliyyət göstərən topdan bazar; 14.Üzgüçülük idman növündə üzmə üsulu; 19.Müxtəlif meyvələrdən hazırlanmış cavanlaşdırıcı xüsusiyyətə malik içki; 21.Polşada şəhər; 22.RF-nin Primorsk diyarında çay; 23.Amazon çayı hövzəsində yerləşdiyi iddia olunan əfsanəvi şəhər. Əfsanəyə görə, bu şəhərdə hər şey qızıldan hazırlanıb; 24.Latın əlifbasında 24-cü hərfin deyilişi. Tənlikdə naməlum rəqəm, qrafiklərdə isə absis oxlarından birinin deyilişi; 25.Partlayıcı qurğunun elementi.



*«Kurtlar vadisi»ndən epizod*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Sobaka; 2.Ekspoze; 3.Omeqa; 4.Kvebek; 5.Münir *(Özkul)*; 6.Leykoz; 9.Abas; 13.AVİS; 15.Ərdəbil *(xanlığı)*; 16.İkitos; 17.Mimoza; 18.Anuçin *(Dmitri)*; 20.Tamil; 21.Leqat. **Soldan sağa:** 1.Stetoskop; 5.Mil; 7.Bessemer *(Henri)*; 8.Aniy; 10.Kvota; 11.Embarqoə ya ixraca tətbiq olunan qadağa; 12.Kenay; 14.İstək; 19.Kutaisi; 21.Ladan; 22.Temp; 23.Lonq-Biç; 24.Sol; 25.Plastilin.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

## idman

# Dağ velosipedi üzrə açıq respublika çempionatı



Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) 2016-cı il üçün nəzərdə tutulmuş təqvim planına uyğun olaraq, aprelin 2-də Veloparkda dağ velosipedi (MTB) üzrə açıq respublika turniri keçirilib.

Federasiyadan aldığımız məlumata görə, yarışda peşəkar idmançılarla yanaşı, həvəskar dağ velosipedçiləri də iştirak ediblər. Reqlamentə görə, 15 və 17 yaşadək velosipedçilər 1,7 km marşrut boyunca 5 dövrə vurublar. Məsafəni hamıdan tez qət edən «Neftçi» İdman Klubu İctimai Birliyinin təmsilçisi Vüqar Nəsibov bu yaş qrupunda birinci yeri tutub. Qədir Mustafayev ikinci, Osman Qəhrəmanov isə üçüncü olub.

1,7 kilometrlik marşrut boyunca 9 dövrə vuran Gənclər, U-23 və Elit kateqoriyasında isə Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Velosiped Məktəbinin üzvü Orxan Məmmədov finiş xəttini birinci keçib. Bu yarışmada Musa Mikayılzadə ikinci yeri tutub, Samir Şıxəlizadə isə üçüncü olub.

# Avropa çempionatının püşkatma tarixi dəqiqləşib

UEFA
UNDER17™
CHAMPIONSHIP
Azerbaijan 2016

Aprelin 8-də 17 yaşadək futbolçulardan ibarət yığma komandaların ölkəmizdə təşkil olunacaq Avropa çempionatının püşkatma mərasimi baş tutacaq. Bakı Olimpiya Stadionunda keçiriləcək mərasimdə AFFA rəhbərliyi, Avropa və ölkə futbolunun tanınmış simaları, turnirin UEFA və Yerli Təşkilat Komitəsinin üzvləri, eləcə də digər rəsmi şəxslər iştirak edəcəklər. Bakı Olimpiya Stadionunun mətbuat konfransı zalında püşkatmanı televiziya vasitəsilə canlı izləmək üçün KİV nümayəndələrinə şərait yaradılacaq. Püşkatmadan sonra turnirin UEFA və Yerli Təşkilat Komitəsinin rəhbərlərinin, çempionatda çıxış edəcək komandaların nümayəndələrinin iştirakı ilə brifinq təşkil olunacaq. Bakı Olimpiya Stadionunun mətbuat konfransı zalı saat 11:30-dan etibarən KİV nümayəndələrinin ixtiyarına veriləcək.

Yeri gəlmişkən, artıq püşkatma zamanı kollektivlərin hansı səbətlərdə yer alacağı da dəqiqdir. Azərbaycan yığması ev sahibi kimi avtomatik olaraq A qrupunda yer alacaq. Ən yaxşı reytinqə malik yeddi qrup qalibi (Danimarka, Ukrayna, İtaliya, Almaniya, Portuqaliya, Fransa və Serbiya) birinci səbətdə yer alacaq. Yerdə qalan səkkiz komanda (Belçika, İsveç, İngiltərə, Bosniya-Herseqovina, Hollandiya, İspaniya, Şotlandiya və Avstriya) isə digər səbətdə qərarlaşacaq.

# Gimnastlarımız İtaliyada yarışıblar

İtaliyanın Pesaro şəhərində bədii gimnastika üzrə dünya kuboku və yeniyetmələr arasında beynəlxalq turnir keçirilib.

Dünya kubokunda Azərbaycan həm qrup hərəkətləri komandası ilə, həm də fərdi çıxış proqramında təmsil olunub. Çoxnövçülükdə 6-cı yeri qazanan Siyana Vasileva, Aleksandra Platonova, Diana Doman, Ayşən Bayramova və Elif Zeynep Celepdən ibarət olan qrup hərəkətləri komandası hər iki finala vəsiqə qazanıb. Finalda qızlar 3 cüt gürz və 2 halqa ilə 7-ci və 5 lentlə isə 8-ci olublar. Fərdi çıxış proqramında Marina Durunda finalda gürzlə çıxış edərək 6-cı yeri tutub.

Yeniyetmələr arasında beynəlxalq turnirdə Azərbaycanı Zöhrə Ağamirova, İlahə Məmmədova və Veronika Hudis təmsil ediblər. Gürzlə final çıxışında medalın bir addımlığında dayanan Zöhrə Ağamirova ən yaxşı nəticəni göstərib. Təsnifat mərhələsinin nəticələrinə görə, İlahə Məmmədova bu alət üzrə öz yerini qaydalara əsasən finalda hər ölkədən yalnız bir idmançının iştirakı mümkün olduğundan, Ukraynadan olan gimnasta verməli olub. V.Hudis də iplə final mərhələsinə vəsiqə qazanaraq 7-ci yerdə qərarlaşıb.



## Tanınmış italiyalı mütəxəssis «Çelsi»də...

İngiltərənin «Çelsi» klubu futbol üzrə İtaliya millisinin baş məşqçisi Antonio Konte ilə müqavilə imzalayıb. İtaliyalı mütəxəssis «Avro-2016» başa çatan kimi yeni vəzifəsinin icrasına başlayacaq. Müqavilə 2019-cu ilədək nəzərdə tutulub. 46 yaşlı baş məşqçi yeni komandasının ilk mövsümündə 6,5 milyon avro qazanacaq, 3 il ərzində isə qazanılacaq rəqəm 20 milyon avro təşkil edəcək.

Qeyd edək ki, A.Konte baş məşqçi karyerası ərzində «Bari», «Atalanta», «Siena» və «Yuventus» klublarında çalışıb. Ötən ilin dekabrında uğursuz nəticələr səbəbindən Joze Mourinyo ilə yollarını ayıran «Çelsi»yə isə hazırda Qus Hiddink başçılıq edir.



## mozaika

# Eşitmə problemi olanlar üçün yeni xidmət

texnologiya



Avstraliyanın «National Relay Service» telefon danışıqlarının tərcüməsi xidməti eşitmə problemi olan insanlar üçün nəzərdə tutulan yeni texnologiya hazırlayıb. Onun köməyi ilə eşitmə qüsuru olan abunəçi artıq həmsöhbəti ilə birbaşa ünsiyyət qura, internetə qoşulmaqla cavabları kompüterin və ya smartfonun ekranında, həmçinin mətn terminalları olan xüsusi telefon aparatlarında oxuya bilir. Həmsöhbətin sözlərinin mətnə çevrilməsi nitqin tanınması proqramlarının köməyi ilə xidmət operatoru tərəfindən yerinə yetirilir. Bu zaman sürət adi ünsiyyətdə olduğu kimi, dəqiqədə 150-180 sözə çatır.

Qeyd edək ki, «National Relay Service» xidmətləri ödənişsiz həyata keçirilir. Bu xidmət hazırda danışıqların səkkiz tərcümə variantını, o cümlədən jest dilindən istifadə olunmaqla videotərcüməni təklif edir.

# Arktikada buz örtüyü əriyir

ekologiya

Arktikadakı buz örtüyünün sahəsi bu qış rekord miqyasda azalıb. Yer kürəsinin qar və buz örtüyünün tədqiqi üzrə Milli Mərkəzi təmsil edən amerikalı alimlər bu nəticəyə gəliblər. Martın 24-də Arktikadakı buz örtüyünün sahəsi 14,52 milyon kvadratkilometr olub. Artıq iki ildir bu xoşagəlməz nəticə qeyd alınır. 2015-ci il fevralın 25-nə olan vəziyyətə görə, bu göstərici 14,54 milyon kvadratkilometr olub. Ümumən, 1981-2010-cu illəri əhatə edən dövr ərzində Arktikadakı buz örtüyünün sahəsi 15,64 milyon kvadratkilometr təşkil edib.

Amerikalı ekspertlər bildiriblər ki, bu qış buzlaqların sahəsi Arktikanın bütün rayonlarında orta göstəricidən də az olub. Yalnız Labrador və Baffin dənizləri, habelə Hudzon boğazı istisna təşkil edib. Alimlər qeyd ediblər ki, Barents dənizində buz örtüyü xüsusilə azalıb.

Yer kürəsinin qar və buz örtüyünün tədqiqi üzrə Milli Mərkəzinin rəhbərlərindən biri olan Ted Skembos bildirib ki, onlar ABŞ peyklərindən ötürülən informasiyaya istinad edirlər. Bu tədqiqatlar 1978-ci ildən aparılır. T.Skembos qeyd edib ki, hazırda Arktika böhran dövrü yaşayır. Baş verən proseslər bütün Şimal yarımkürəsində havanın temperaturuna təsir göstərir. Şimal Buzlu okean üzərində havanın temperaturu dekabr, yanvar və fevral aylarında orta göstəricidən 2-6 dərəcə yüksək olub.



oxucu maktubu

# Saqqal vergisi

Uşaqlıqdan qədim sikkələrin və ordenlərin kolleksiyasını yığıram. Kolleksiyamdakı eksponatlar arasında maraqlı jetonlar - «saqqal nişanları» da var. Məlum olur ki, bu nişanları Rusiyada Pyotr zamanında «saqqal vergisi» ödəyənlərə verirmişlər. Vergi işçisi kimi, bu mövzu marağımdan kənarda qala bilməzdi.

...Rusiyada əsrlər boyunca saqqala qanun səviyyəsində böyük hörmətlə yanaşılıb. Kişinin saqqalının qırxılması şərəf məsələsi hesab olunub, saqqalı qırxmağı lüt gəzməklə bir tutublar. Lakin I Pyotr 1699-cu ildə imzaladığı fərmanla bu ehkamı aradan qaldırıb. Əhali fərmanı etirazla qarşılayıb, hətta qiyam təhlükəsi yaranıb. Ona görə də çar 11 yanvar 1705-ci il tarixli yeni fərman imzalayaraq saqqal və bığ saxlamağa sərbəstlik verib. Lakin ruhanilər istisna olmaqla, bütün kişilərə bığ-saqqal saxlamağa görə illik 50 rubl (böyük məbləğ hesab edilirdi) vergi qoyulmuşdu. Vergisini ödəyənlərə isə xalq arasında «lənətə gəlmiş sənəd» adlandırılan xüsusi metal jeton verirdilər. Saqqal saxlayanlar bunu həmişə özləri ilə gəzdirməli idilər. Bu sənəd olmayanda saqqallı şəxs üzərində gəzdirdiyi qayçı ilə saqqalının və bığının yarısını kəsməli idi.

«Saqqal nişanları» Moskva zərbxanasında hazırlanırdı. Nişanın üz tərəfində kişi sifəti - burun, saqqal və bığ, arxa tərəfində isə ölkənin gerbi və fərmanın tarixi - 1705 rəqəmi həkk olunmuşdu. Nişanlar misdən döyülüb hazırlanırdı. Ancaq Rusiyanın Dövlət Ermitajının eksponatları arasında gümüş və qızıl nişanlara da rast gəlmək olur. Görünür, bunlar varlı adamlar üçün sifarişlə hazırlanırmış.

1724-cü ildən «saqqal nişanları» dəyişdirilir. Ölçüsü böyüdülür və onlara romb forması verilir. Nişanın üstündəki yazı da dəyişdirilir: «Saqqal vergisi alınıb, 1725». Nişanın arxa tərəfində yazı verilmir. Qanunu pozanlar, nişanları saxta yolla əldə edənlər isə şallaq, hətta katorqa cəzasına məhkum edilir.

Həm xərcə, həm də cəzaya görə Rusiyada getdikcə saqqal saxlayanların sayı azalır və beləliklə də çarın fərmanı öz işini görmüş olur. Pyotrun ölümündən (1725) sonra, 1728-ci ildə «saqqal nişanlarının» əhalidən yığışdırılması və onlardan mis sikkələr hazırlanması barədə əmr verilir.

Hazırda mənim şəxsi kolleksiyamda olan bu nişanlar Vergilər Nazirliyinin Tədris Mərkəzinin muzeyində nümayiş etdiriləcək.

Eldar Abbasov,
*Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət və uçot idarəsi rəisinin müavini*



**Müdriklər deyib ki...**

*«Dünəndən öyrənin, bu gün üçün yaşayın, sabah üçün ümid edin».*
*Albert Eynşteyn (1879-1955)*

